Günəş Şərqdən doğur!

№ 191 (5712), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 20 oktyabr 2022-ci il (cümə axşamı)



## “Fəlakətin resepti"

Növbəti pandemiya buzlaqlardan gələ bilər

**Növbəti pandemiya yarasalar və ya quşlardan deyil, buzların əriməsindən yarana bilər.** ”Şərq” xarici mediaya istinadən xəbər verir ki, Arktikadakı Hazen gölünün torpağının genetik analizləri göstərib ki, buzlaqların əriməsi yaxınlığında virusun yayılma riski daha çox ola bilər.

(Səh.12)

## “Boğazımdakı şiş ümidlərimi qırdı"

Könül Xasıyevaya 254 min lazımdır



**”Əziz və dəyərli xalqımız, elimiz-obamız, uzaqda, yaxında yaşayan soydaşlarımız.**

Sənətə gəldiyim ilk gündən, hər zaman ləyaqətlə yaşamağa çalışdım. Öncə ləyaqət, sonra sənət dedim. Kimsənin qəlbini qırmadım. Var-dövlət arxasınca qaçmadım. Sadə doğuldum, sadə yaşadım.

(Səh.15)



## Prezident Zəngilanda ilk yaşayış binasının təməlini qoydu

Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva burada Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olublar

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına səfər ediblər. Dövlət başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli-Cəbrayıl hissəsinin açılışında iştirak edib.

(Səh.5)

# Avropa bölgəyə sülh gətirəcəkmi?

Sərhəd missiyasının fəaliyyəti müəmmalı ab-hava yaradıb



Monitorinq qrupunun obyektiv mövqedə dayanacağı böyük şübhələr doğurur

Cənubi Qafqaz regionunda vəziyyətin monitorinqi, təhlili və hesabatının təqdim edilməsi məqsədilə Azərbaycan-Ermənistan sərhədinə göndərilən 40 nəfərlik ekspert qrupu ətrafında müzakirələr genişlənməkdədir.

(Səh.8)




## XİN adlarını da açıqladı

2020-ci ildə erməni terroru zamanı 12 uşaq həlak olub

Ermənistanın 44 günlük müharibə zamanı Azərbaycan əhalisinin sıx məskunlaşdığı şəhərləri raket atəşinə tutması nəticəsində 12 uşaq həlak olub.

(Səh.4)

## Ukrayna Rusiyanın 4 qanadlı raketini, 8 PUA-sını məhv edib

**Rusiya növbəti dəfə Ukraynanın vilayətlərinə raket və pilotsuz uçuş aparatları ilə hücum edir, ölkə ərazisində partlayış səsləri eşidilir.** Kiyev vilayəti hərbi administrasiyasının başçısı Oleksey Kuleba paytaxt istiqamətində atılan 5 raketin hamısının məhv edildiyini bildirib.

(Səh.7)

# Tıxacları azaltmaq üçün iş saatları dəyişdirilməlidir



Dövlət, özəl və təhsil müəssisələrinin fərqli iş saatlarında işə başlaması imkan verir ki, vətəndaşlar tıxacda az zaman sərf etsinlər

**Son dövrlər paytaxt yollarındakı tıxaclar Bakı sakinləri üçün ən ciddi problemlərdən birinə çevrilməkdədir.**

Bu ilin yanvar ayına olan məlumata görə, Azərbaycanda minik avtomobillərinin sayı 1 milyon 349 minə çatıb. Ümumi avtomobillərin sayı isə 1.7 milyondur.

(səh.8)



## Şagirdlərin cəzalandırılması daha ciddi problemlər yaradacaq

Kamran Əsədov: “Əksinə, məktəbə, müəllimə qarşı aqressiyanı artırmış olacaqlar, şagirdlər müəllimlərə, məktəbə qarşı birləşəcək artıq”

Məktəblərdə nizam-intizam qaydalarını pozan şagirdlərə qarşı tətbiq ediləcək inzibati tədbirlər müəyyənləşib. Bu barədə Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev bildirib.

(səh.9)



## Azərbaycanın yeni əməliyyatlar keçirəcəyi ehtimalları çoxalır

İndi ən çox gərginlik sərhədin Daşkəsən zolağında müşahidə edilməkdədir

(səh.6)



## Qarabağ erməniləri Azərbaycan qanunlarına tabe olmalıdır

Qərb və Ermənistan Qarabağın Azərbaycanın tərkib hissəsi olması fikri ilə getdikcə daha çox barışır

(səh.9)

## Vəfat edən olmayıb

Daha 65 yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 65 yeni yoluxma faktı qeydə alınıb, 68 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

(səh.8)



# Prezident Zəngilanda ilk yaşayış binasının təməlini qoydu

## Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva burada Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olublar

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarına səfər ediblər. Dövlət başçısı Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli-Cəbrayıl hissəsinin açılışında iştirak edib. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun texniki göstəriciləri və görülən işlər barədə məlumat verib.**

Bildirilib ki, uzunluğu 42 kilometr olan köhnə yol 2,3 kilometr qısaldılaraq 39,7 kilometrlik yeni yolla əvəzlənib. Dördzolaqlı yolun hərəkət hissəsinin eni 14 metr, torpaq yatağının eni isə 21,5 metrdir. Yolun üzərində yerləşən 6 körpünün tikintisi başa çatıb. Məlumat verilib ki, həmçinin yol boyunca 45 dairəvi suötürücü boru, 49 ehtiyat keçid borusu, 25 düzbucaqlı suötürücüsü, 7 düzbucaqlı heyvan keçidi tikilib, 366 metr uzunluğunda beton, 1620 metr daş istinad divarları çəkilib, 18 avtobus dayanacağı quraşdırılıb. Qeyd edək ki, bu yol Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində inşa olunub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin layihəsi ilə tanış olublar. Dövlətimizin başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 ceyranın buraxılması mərasimində iştirak ediblər. Dövlət başçısı Cəbrayıl Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub, 330/110 kilovoltluq beynəlxalq "Cəbrayıl" Qovşaq Yarımstansiyasında aparılan tikinti işləri ilə tanış olub. Prezident Qubadlı rayonunda "Bərgüşadçay" və "Zabuxçay" su anbarlarının layihələri ilə tanış olub, Qubadlı Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin təməlini qoyub.

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin layihəsi ilə tanış olublar. Dövlət başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyranın buraxılması mərasimində də iştirak ediblər. Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə görüləcək işlərlə bağlı məlumat verib.

Prezident İlham Əliyev Cəbrayılda "Azərişıq" ASC-nin 35 kilovoltluq yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak edib. Dövlət başçısı yarımstansiya və idarəetmə mərkəzinin təməlini qoyub. Qeyd edək ki, inşa olunacaq Rəqəmsal İdarəetmə Mərkəzi 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasından qidalanacaq. Mərkəz Cəbrayıl şəhərinin elektrik enerjisinə olan tələbatının bir hissəsini təmin etməklə yanaşı, tikintisi nəzərdə tutulan digər güc mərkəzlərinin rəqəmsal platforma üzərindən idarəetmənin həyata keçirməyə imkan verəcək. Rəqəmsal İdarəetmə Mərkəzində tətbiq olunacaq müasir dispetçer idarəetmə sistemi elektrik enerjisinin real vaxt rejimində istehlakçıya çatdırılmasında abonent məmnunluğunu təmin edəcək. Eyni zamanda, "Qubadlı şəhər" 35/0,4 kilovoltluq yarımstansiyanı Mərkəzlə birləşdirəcək ikidövrəli kabel xəttinin çəkilməsi Cəbrayıl və Qubadlı şəhərlərinin qarşılıqlı enerji mübadiləsinə imkan verəcək.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Bildirilib ki, 4 ay əvvəl təməli qoyulan yarımstansiyada böyük həcmdə torpaq, tikinti - quraşdırma işləri görülüb, yeraltı kommunikasiyalar üçün kanallar inşa edilib, 330 və 110 kilovoltluq açıq paylayıcı qurğularda işlərin çox hissəsi yekunlaşıb, Rəqəmsal İdarəetmə Mərkəzinin binası tikilib. "Cəbrayıl" Qovşaq Yarımstansiyasının əhəmiyyəti barədə məlumat verən Baba Rzayev deyib ki, Qarabağ və Şərqi Zəngəzur regionlarının dayanıqlı elektrik enerjisi ilə təchizatını təmin etmək, həyata keçiriləcək meqalayihələrin tələbatını qarşılamaq, Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyaları, oradan isə Türkiyənin enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerji sisteminə qoşmaq mümkün olacaq. O cümlədən İranla müştərək tikilən "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyalarında, həmçinin alternativ və bərpa olunan enerji mənbələrində və kiçik su elektrik stansiyalarında istehsal ediləcək enerjini Azərbaycanın ümumi enerji sisteminə ötürmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca mühüm hadisədir.

Bir çox dövlətlərin marağında olduğu və beynəlxalq əhəmiyyət kəsb edən Azərbaycan-Türkiyə-Avropa ölkələrarası beynəlxalq layihənin reallaşdırılması üzrə 3 mərhələdən ibarət planlaşdırma aparılıb. Bunun üçün birinci mərhələdə istismar müddətini keçən və işğaldan azad edilən ərazilərə ən yaxın məsafədə yerləşən 330 kilovoltluq "Ağcabədi" və "İmişli" yarımstansiyalarının genişləndirilərək tam yenidən qurulması və "Ağcabədi" yarımstansiyasından 132 kilometr, "İmişli" yarımstansiyasından isə 130 kilometr məsafədə Cəbrayıla yüksəkgərginlikli elektrik verilişi xəttinin çəkilməsi nəzərdə tutulub. Artıq "Ağcabədi" yarımstansiyasından Cəbrayıla 330 kilovoltluq xəttin çəkilməsinə başlanılıb. Eyni zamanda, Cəbrayılda 330 kilovoltluq qovşaq yarımstansiyasında işlərin böyük hissəsi görülüb. İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerji sistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" Qovşaq Yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikaya 255 kilometr uzunluğunda ikidövrəli elektrik verilişi xətti çəkiləcək və 330 kilovoltluq "Naxçıvan" yarımstansiyası tikiləcək. Üçüncü mərhələdə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün muxtar respublikanın qardaş ölkəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirmək üçün əlavə Avropa enerji standartlarına uyğun 400 kilovoltluq çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr uzunluğunda ikidövrəli elektrik verilişi xətti çəkiləcək. Bununla da böyük strateji əhəmiyyətə malik layihə reallaşdırılacaq.

Sonra ölkə başçısı Qubadlı rayonu ərazisində yaradılacaq "Zabuxçay" və "Bərgüşadçay" su anbarlarının layihələri ilə tanış olub. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (ASC) sədri Zaur Mikayılov dövlətimizin başçısına layihələr barədə məlumat verib. Bildirilib ki, bu layihələr Prezidentin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın 21-ci iclasında Zabuxçayın Həkəriçaya birləşdiyi yerdən aşağı hissədə su anbarının yaradılması və magistral boru kəmərinin tikintisi məqsədilə verilmiş tapşırıqların icrası olaraq ASC tərəfindən hazırlanıb. Eyni zamanda, ASC tərəfindən Türkiyənin "Suyapı" məsləhətçi şirkəti dəvət edilərək Zabuxçayın Həkəriçaya birləşdiyi yerdən aşağı hissədə su anbarının və ondan ayrılacaq magistral kanalların (Laçın-Qubadlı-Zəngilan) yaradılması məsələsi üzrə müvafiq araşdırmalar aparılaraq təkliflər hazırlanıb. Araşdırmalar əsasında layihələrdə nəzərdə tutulan ümumi ərazisi 12 min 100 hektar olan əkin sahəsinə saniyədə 6,18 kubmetr suyun mütəmadi verilməsi üçün tutumu 26,7 milyon kubmetr olan su anbarının yaradılması daha münasib hesab edilib. Su anbarının hündürlüyü 40 metr, uzunluğu 615 metr olan torpaq bənddən yaradılması təklif edilib. Eyni zamanda, Zabuxçay çayının suyunun yeni su anbarında tənzimləməklə uzunluğu 49 kilometr olan polad boru xətti ilə Qubadlı və Zəngilan rayonlarında yerləşən torpaq sahələrinə suyun verilməsi, eyni zamanda, layihədə subasar zonadan avtomobil yolunun kənarlaşdırılaraq yeni yolun çəkilməsi və bəndyanı Su Elektrik Stansiyasının tikilməsi nəzərdə tutulur. Nəticə etibarilə, Qubadlı və Zəngilan rayonları ərazisində "Dost Aqro" şirkətinin 1900 hektar, "Azərsun" MMC-nin 3300 hektar, "AzərAqrar" şirkətinin 2500 hektar, "Aqrovay" şirkətinin 2700 hektar, "Dost Ziraat Heyvandarlıq" şirkətinin 1700 hektar əkin sahəsi suvarma suyu ilə təmin oluna bilər. Qeyd edildi ki, Bərgüşadçay su anbarının yeri isə topoqrafik və mürəkkəb geoloji şərait nəzərə alınmaqla ən optimal variant olaraq Qubadlı şəhərindən yuxarıda - Bəxtiyarlı kəndinin yaxınlığında yaradılması təklifi qəbul edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda da olublar. Dövlət başçısı və birinci xanım Ağalı kənd orta məktəbinin şagird-müəllim kollektivi və sakinlərlə görüşüb. Arximed turbini tipli Su Elektrik Stansiyasını işə salıb və Zəngilan Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olublar. Həmçinin, Zəngilan şəhərində ilk yaşayış binasının və məktəbin təməlqoyma mərasimlərində iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanın Ağalı kəndində sakinlərlə də görüşüblər.

**İsmayıl**



### Ərdoğan Zelenski ilə danışdı

"Biz müharibənin sona çatması üçün hər cür töhfə verməyə hazırıq"

**Prezident Ərdoğan ilə Ukrayna Prezidenti Zelenski arasında telefon danışığı olub.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, danışıqlar zamanı Ərdoğan danışıqlar yolu ilə müharibənin sona çatması üçün hər cür töhfə verməyə hazır olduqlarını bildirib.

Rusiya-Ukrayna müharibəsi ilə bağlı son hadisələr müzakirə olunub. Ərdoğan diplomatik həll yolunun hər şəraitdə canlı tutulmasının lazım olduğunu ifadə edib.

Prezident Ərdoğan, Ukrayna Prezidenti Zelenskiyə Bartında baş verən mədən partlayışı ilə bağlı başsağlığı mesajına görə təşəkkür edib.

**Turan**

### Putin Moskvada yüksək hazırlıq səviyyəsinin tətbiqi barədə fərman imzalayıb

**Rusiya Prezidenti Vladimir Putin Mərkəzi Federal Dairədə, o cümlədən Moskvada yüksək hazırlıq səviyyəsinin tətbiq edilməsi haqqında fərman imzalayıb.**

APA-nın Moskva müxbirinin məlumatına görə, fərman əsasında ictimai asayişin qorunması və nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması və onların texniki baxışının həyata keçirilməsi gücləndiriləcək.

Kremlin saytında yerləşdirilən məlumata əsasən, Putin Rusiyanın Ukrayna ilə həmsərhəd bölgələrində orta səviyyəli reaksiya səviyyəsinin, Mərkəzi və Cənub Federal Dairələrinin digər bölgələrində yüksək hazırlıq səviyyəsinin tətbiq edilməsi haqqında fərman imzalayıb.

Orta səviyyəli reaksiya səviyyəsi Krım, Krasnodar diyarı, Belqorod, Bryansk, Voronej, Kursk, Rostov vilayətləri və Sevastopola aiddir.

### Qarabağda heyvandarlıq sahəsində biznes üçün subsidiyalar nəzərdə tutulub

**Qarabağda heyvandarlıq sahəsində biznes üçün subsidiyalar nəzərdə tutulub.**

Trend-in məlumatına görə, bunu çərşənbə günü Aqrar Kredit və İnkişaf Agentliyinin İdarə heyətinin sədri Seymur Mövlayev "Qarabağda biznes və investisiya imkanları" adlı panel sessiyasında deyib.

"Azad edilmiş ərazilərdə heyvandarlıq sahəsində biznesin yaradılması üçün sahibkarlara dövlət tərəfindən 60 faiz həcmində subsidiyalar veriləcək", - deyə o bildirib.

Onun sözlərinə görə, bu sektor üçün avadanlıqların alınmasına görə dövlət tərəfindən 40 faiz həcmində subsidiyalar nəzərdə tutulub.




# Prezident Qubadlı şəhərinin baş planı ilə tanış olub

## İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar

**Oktyabrın 19-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı şəhərinin Baş planı ilə tanış olublar, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına və birinci xanıma Qubadlı şəhərinin Baş planı barədə məlumat verib.**

Bildirilib ki, Baş plan bu sahədə böyük təcrübəyə malik İsveçrənin "S.A_Partners" şirkəti və Bakı Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb. Qubadlı şəhəri beynəlxalq hava limanlarının tikildiyi Zəngilan və Laçın rayonları arasında yerləşməklə coğrafi mövqeyi və logistik imkanları baxımından strateji əhəmiyyətə malikdir. Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır. Baş planın əsasında insanların yenidən təbiətlə qovuşması, komfortlu qonşuluq ərazilərinin təşkili, canlı rayon mərkəzi və sakit hərəkət strategiyaları dayanır. Qubadlının təbii imkanları nəzərə alınaraq şəhər parkları, meşə-parklar, çaykənarı bulvar, həmçinin ictimai bağlar şəhərin əsas simasını təşkil edəcək. Burada yerləşəcək yaşayış məkanlarının ərazi planlaşdırılmasında yaşıl sahələr, piyada əlçatanlığı nəzərə alınmış, çoxfunksiyalı zonaların, ortamərtəbəli və azmərtəbəli binaların, həmçinin həyətyanı sahəsi olan fərdi evlər üçün zonaların yerləri müəyyənləşdirilib. Baş planda şəhərin gündəlik həyat dinamikasını təmin etmək üçün müxtəlif zonalar arasında sıx bağlantıların təşkilinə xüsusi önəm verilib və bu məqsədlə əsas mərkəzi hissədə su kanalı boyunca piyada küçəsi, istirahət yerləri və interaktiv məkanlar nəzərdə tutulub. Sənədin başlıca konseptual əsaslarından olan nəqliyyat strategiyası isə aşağı sürətli hərəkət prinsipi üzərində qurulub. Şəhərdə piyada hərəkətinin prioritet olduğu küçələr, ictimai nəqliyyatın mübadilə mərkəzi və parklanma üçün ərazilər müəyyən edilib.

Baş plana əsasən şəhərin mərkəzi hissəsində evləri, iş yerlərini, istirahət, əyləncə və mədəni fəaliyyəti, sosial obyektləri bir mühitdə cəmləyən əlverişli şəraitin yaradılması planlaşdırılır. Şəhər üzrə tikinti sıxlığı mərkəzdən kənarlara doğru azalacaq. Orta mərtəbəli çoxmənzilli yaşayış binaları və ictimai tikililər mərkəzi hissədə, daha kənarlara doğru isə azmərtəbəli binalar və həyətyanı sahələrə malik fərdi evlər yerləşdiriləcək. Şəhərin planlaşdırılması zamanı təbiq edilmiş su ilə qovuşan və suya həssas şəhər ("Sponge city") yanaşması yağıntıların şəhər mühitinə mənfi təsirinin azaldılmasını, su təchizatı üçün optimal həllərin təşkilini, habelə su ehtiyatlarından səmərəli istifadəni özündə ehtiva edir. Nəticədə şəhərin biomüxtəlifliyi üçün münbit şəraitin yaradılması və Qubadlının göz oxşayan yaşıl bir məkana çevrilməsi nəzərdə tutulur.

Şəhər ərazisində ümumi məşğulluğun təmin edilməsi bir neçə istiqamətdə aparılacaq. Yaxın 20 illik perspektiv üçün Qubadlıda bitkiçilik və ekoloji kənd təsərrüfatı, balıqçılıq və balıqyetişdirmə, müasir sənətkarlıq, yüngül sənaye, təbiət əsaslı aqro-turizm və digər sahələrin inkişafı planlaşdırılır. Beləliklə, şəhərin memarlıq simasının formalaşmasında müasir və ənənəvi elementlərin vəhdətindən istifadə ediləcək, yaşıl şəhər obrazı yaradılacaq.

Qubadlı İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntılardan ibarət Memorial Parkdan ibarət olacaq. Kompleks təxminən 3 hektar ərazini əhatə edəcək. Bu ərazi çox strateji mövqedədir, əsas yol şəbəkəsinə və nəqliyyat qovşağına yaxındır. Həmçinin Həkəri çayını əhatə edən təbii yaşıllıq zolağının bir hissəsi kompleksin ərazisinin şimal hissəsini təşkil edəcək, bu da öz növbəsində kompleksin heyrətamiz təbii mühitdə inşasına imkan yaradacaq. Çayın bir hissəsi kompleksin ərazisindən keçdiyi üçün Zəfər Muzeyi və İşğal Muzeyinin gözəl mənzərəli körpü vasitəsilə simvolik olaraq bir-biri ilə əlaqələndirilməsi nəzərdə tutulur. Həkəri çayı üzərində salınan Laləzar körpüsü kimi bir çox qədim körpülər və Qubadlı ərazisində aşkarlanan daş qoç fiqurlarında təsvir olunan spiralvari buynuzlar layihə konsepsiyasının əsas ilham mənbəyini təşkil edir. İşğal Muzeyinin binası kiçik çayın sağ sahilindən yüksələn spiralvari yoldan başlayır. Bu yol binanın sahəsi boyunca spiral şəklində fırlanır, sonra çayın üzərindən davam edərək gözəl mənzərəli körpüyə çevrilir və çayın sol sahilində Zəfər Muzeyinə birləşərək spiralvari pilləkəndə tamamlanır.

Qubadlı İşğal Muzeyinin interyeri binanın spiralvari forması ilə səciyyələnir. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaqdır. Muzeydə işğala qədər Qubadlıda əhalinin gündəlik həyatı, şəhərin işğalı və həmin hadisələrin şahidlərinin xatirələri, dağıdılmış irs və işğaldan sonra ərazinin məruz qaldığı vandallıq əyani olaraq nümayiş etdiriləcək. Muzey binasının sonuncu mərtəbəsində isə ziyarətçilərin istirahəti üçün yaşıllıqlardan ibarət terras təşkil olunacaq.

Zəfər Muzeyinin interyeri də dairəvi formada olacaq. Birinci mərtəbədə yerləşən sərgi zalları xalqımızın göstərdiyi qəhrəmanlıq və qazanılan Zəfərə, o cümlədən "Dəmir yumruq" əməliyyatına həsr olunacaq. İkinci mərtəbədə vizual texnologiyalar vasitəsilə Vətən uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsini əbədiləşdirən və qəhrəmanlarımız haqqında məlumatların təqdim olunduğu ekspozisiya yaradılacaq. Həmçinin muzeydə müxtəlif sərgilərin keçirilməsi üçün xüsusi zal fəaliyyət göstərəcək. Buradan ziyarətçilər həm pilləkənlə, həm də lift vasitəsilə üst mərtəbədə yerləşən və müxtəlif mədəni tədbirlərin təşkili üçün nəzərdə tutulan açıq səma altındakı amfiteatra qalxa biləcəklər.

Bu muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən, haqq səsimizi dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyublar.*

**İsmayıl**

# Zakir Həsənov Baxodir Kurbanovu qəbul edib

## Azərbaycan və Özbəkistan müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planı imzalanıb



**Oktyabrın 19-da Özbəkistan Respublikasının müdafiə naziri general-leytenant Baxodir Kurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfər edib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, Şəhidlər xiyabanında isə ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklil və gül dəstələri qoyub.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi keçirilib. Fəxri qarovulun önündən keçildikdən sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib. General-leytenant B.Kurbanov protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Qonaqları salamlayan müdafiə naziri general-polkovnik Zakir Həsənov onları Azərbaycanda görməkdən məmnunluğunu bildirib, ölkələrimiz arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu vurğulayıb.

Müdafiə naziri özbəkistanlı həmkarını Ermənistan silahlı birləşmələrinin son təxribatlarına qarşı Ordumuz tərəfindən görülən qətiyyətli cavab tədbirlərindən sonra yaranmış əməliyyat şəraiti, eləcə də ordu quruculuğu sahəsində görülən işlər barədə məlumatlandırıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən Özbəkistanın müdafiə naziri səmimi qəbula görə öz minnətdarlığını bildirib, qarşıdan gələn Zəfər Günü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan ilə Özbəkistan müdafiə sahəsində əməkdaşlığın hər iki ordunun daha da gücləndirilməsinə xidmət etdiyini xüsusi qeyd edib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib.

Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2023-cü il üçün ikitərəfli əməkdaşlıq Planı" imzalanıb.

Sonda Mərkəzi Komanda Məntəqəsinə gələn nümayəndə heyəti buranın komanda idarəetməyə dair texniki imkanları və ümumilikdə görülən işlərlə tanış olub.

**Aygün**

# Rusiya miqrasiya siyasətinə dəyişiklik etməyi planlaşdırır



**Yeni reallıqlarda miqrasiya siyasətinin hazırki konsepsiyasını korrektə etmək lazımdır.**

APA-nın Moskva müxbirinin məlumatına görə, bunu Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının üzvləri ilə keçirdiyi müşavirədə bildirib.

"Hörmətli həmkarlar, indi keçək Təhlükəsizlik Şurasının iclasının gündəliyinə... Gəlin miqrasiya siyasətinin bəzi məsələlərini müzakirə edək. Bu sahə milli təhlükəsizlik, Rusiyanın və cəmiyyətimizin stabil inkişafı üçün son dərəcə həssasdır. Dünyada vəziyyət dinamik şəkildə dəyişir, miqrasiya sferasına təsir edən yeni qlobal və regional faktorlar yaranır", - deyə Putin vurğulayıb.

Rusiya prezidenti qeyd edib ki, bu dəyişikliklərə operativ və effektli reaksiya vermək, yeni reallıqların hərtərəfli təhlili əsasında işi təkmilləşdirmək lazımdır.

# Qarabağ ermənilərinin problemini Bakı həll edəcək

## Paşinyan reallıqları və mövcud vəziyyəti Arutyunyana başa salıb

**Qarabağ separatçılarının başçısı Araik Arutyunyan İrəvandan Xankəndiyə qayıtdıqdan sonra Ermənistan rəsmiləri ilə keçirdiyi görüşlərin təfərrüatlarını "müxtəlif dairələrə" təqdim etmək üçün görüşlərə başlayıb.**

Arutyunyanın rəhbərlik etdiyi "nümayəndə heyəti" Praqada əldə olunan razılaşmaları Nikol Paşinyandan öyrənmək üçün ötən həftəboyu İrəvanda səfərdə olub. Araikin dəstəsi Ermənistan prezidenti, xarici işlər naziri, Təhlükəsizlik Şurasının katibi, parlamentin sədri və sonda çox çətinliklə Baş nazir Paşinyanla görüşüb, müzakirə aparıb. Arutyunyan bu görüşlər zamanı əldə etdiyi məlumatları "Artsaxın siyasi elitası"na çatdırmağa söz verib. "Hraparak"ın məlumatına görə, Xankəndidə görüş-müzakirələrə başlayan A.Arutyunyan "siyasi qüvvələr"in nümayəndələrini öz qərargahına dəvət edib. O, Nikol Paşinyan və digər İrəvan rəsmilərinin fikirlərini Qarabağ separatçılarının diqqətinə çatdırıb. Qeyd edib ki, ona İrəvanda vəziyyətin və geosiyasi proseslərin gərgin olduğu, təkcə Qarabağ separatçılarının deyil, həm də Ermənistanın taleyinin təhlükə altında olduğu deyilib. Araikə o da çatdırılıb ki, bu baxımdan ən effektiv yol Ermənistanın öz problemləri ilə, Qarabağ separatçılarının isə öz məsələləri ilə məşğul olmasıdır. Bununla belə, Ermənistan rəsmiləri Qarabağ separatçılarına maliyyə dəstəyini davam etdirməyə söz veriblər. Paşinyanın fikrincə, Rusiyanın mövqeyi o qədər zəifləyib ki, Moskva artıq "Artsax"dan əlini üzüb və sülhməramlıları Qarabağdakı müddəti başa çatandan sonra bölgədən çəkilə bilər. Ona görə də Xankəndidəki rejim başa düşməlidir ki, Qarabağ ermənilərinin problemlərini yalnız Bakı ilə birbaşa əlaqələr vasitəsilə həll etmək mümkündür.



Belə getsə, baş nazir Qarabağdakı ermənilərə maliyyə dəstəyini də kəsəcək

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Ermənistan rəhbərliyi yaxşı bilir ki, Qarabağ məsələsinin yenidən qabardılması Azərbaycanın hərbi təzyiqlərinin artması ilə nəticələnəcək.** Ekspert deyib ki, dövlət başçısı İlham Əliyevin MDB sammitində Nikol Paşinyana üçtərəfli sazişin 9-cü, 4-cü bəndini xatırlatması təsadüfi deyildi: "Bu, Ermənistan rəhbərliyinə çox ciddi mesaj idi ki, İrəvan hökuməti absurd fikirlərdən vaz keçsin. Paşinyanın Praqa görüşündən sonra Araiklə görüşməsi, ona mövcud vəziyyəti və reallığı başa salması ehtimalı yüksəkdir. İrəvanın hazırda Qarabağa hərbi-siyasi nüfuzu yoxdur. Sadəcə olaraq humanitar missiya adı altında maliyyə yardımı etməklə kifayətlənir. Ancaq görünür, baş nazir artıq maliyyə dəstəyini də kəsməyi planlaşdırır. Çünki Ermənistanın Qarabağa maddi yardımları da Azərbaycanın daxili işinə müdaxilə etməkdir. Nəzərə alaq ki, Paşinyanın özü də etiraf edib ki, o, Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Azərbaycan rəhbərliyi dəfələrlə bəyan edib ki, Qarabağdakı ermənilər bizim vətəndaşlarımız sayılır. Dövlət öz resursları, maddi gücü hesabına Xankəndi və ətraf ərazilərimizi ən qısa zamanda iqtisadi baxımdan dirçəltməyə, erməni vətəndaşlarımızın rifahını yaxşılaşdırmağa tam qadirdir.

Siyasi reallıqlar Ermənistanın əleyhinə işləyir. Əgər İrəvan Qarabağ iddiasından və digər təxribatçı cəhdlərindən əl çəkməzsə, daha acınacaqlı duruma düşəcək və cəzalanacaq".

**İsmayıl Qocayev**

# Piketə icazə verilməyib

## Meriya AXCP-nin müraciətini cavablandırıb



**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) oktyabrın 24-də BŞİH inzibati binasının qarşısında piketin keçirilməsi barədə müraciətinə cavab verib.**

APA-nın xəbərinə görə, AXCP-yə BŞİH qarşısında aksiya keçirməsinə razılıq verilməyib.

Qeyd edilib ki, piket keçirmək üçün qeyd edilən ərazi təhsil müəssisələrinin, həmçinin əhalinin daha sıx fəaliyyətdə olduğu metro çıxışı, nəqliyyat vasitələrinin intensiv hərəkət etdiyi yol yaxınlığında olduğundan həmin yerdə piketin keçirilməsi toplantıda iştirak etməyən digər insanların sərbəst hərəkətinə, təhlükəsizliyin təmin edilməsində ciddi çətinliklərin yaranmasına səbəb olacaq.

Buna görə də piketin keçirilməsi məqsədəuyğun sayılmayıb.

# Böyük Britaniyanın daxili işlər naziri istefa verib



**Böyük Britaniyanın daxili işlər naziri istefa verib. APA-nın Britaniya bürosunun xəbərinə görə, nazir Suella Breverman şəxsi elektron poçtundan rəsmi sənəd göndərdikdən sonra hökumətdən istefa verib.**

O, istefa məktubunda hökumətin təhlükəsizlik qaydalarını pozduğunu etiraf edərək bildirib ki, səhvə yol verib:

"Mən səhv etdim, məsuliyyəti qəbul edirəm, istefa verirəm",- deyə keçmiş nazir qeyd edib.

O, həmçinin hökumətin yol aldığı istiqamətlə bağlı narahatlığını da dilə gətirib.

Bununla da Seulla Breverman 1834-cü ildən bəri ən qısa müddətdə xidmət edən daxili işlər naziri olub.




# XİN adlarını da açıqladı

## 2020-ci ildə erməni terroru zamanı 12 uşaq həlak olub

**Ermənistanın 44 günlük müharibə zamanı Azərbaycan əhalisinin sıx məskunlaşdığı şəhərləri raket atəşinə tutması nəticəsində 12 uşaq həlak olub.**

Bu barədə dünən Azərbaycan Xarici İşlər Nazirliyinin rəsmi "Twitter" hesabında qeyd edilib.

Paylaşımda həmçinin terror qurbanı olan uşaqlar barədə qeyd edilib.

"Fərid İsgəndərov - 14 yaş , Fidan Qurbanova - 14 yaş , Şəhriyar Qurbanov - 13 yaş, Artur Mayakov - 13 yaş, Mədinə Şahnəzərli - 1 yaş, Məryəm Xəlilli - 6 yaş , Orxan İsmayılzadə - 16 yaş, Nigar Əsgərova - 15 yaş , Nəzrin Əsgərova - 10 ay, Orxan Xəlilli - 11 yaş , Aysu İsgəndərova - 7 yaş , Şahmalı Rəhimov - 13 yaş" - deyə bildirilib.

# Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək

## Azərbaycan növbəti illərdə də hərtərəfli inkişaf tempini saxlayacaq

**"Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri daha da möhkəmlənib. Bu diplomatik reallıqlar fonunda respublikamızın Avropaya və dünya birliyinə inteqrasiyası xeyli sürətlənib".**



Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov deyib.

Politoloqun sözlərinə görə, 44 günlük müharibənin uğurlu nəticələri göstərdi ki, Azərbaycan dünya dövlətləri arasında öz sözünü deyir, daxili və xarici siyasətdə davamlı uğur əldə edir. Dövlət başçımızın məntiqli xarici və daxili siyasəti, uğurlu diplomatik fəaliyyəti belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də hərtərəfli inkişaf tempini saxlayacaq, ölkəmizin həm regional, həm də qlobal səviyyədə mövqelərinin möhkəmlənməsi davam etdiriləcək: "Cənab Prezident İlham Əliyevin Qırğızıstan və Qazaxıstana səfəri mühüm siyasi nəticələrlə yadda qaldı. Son dövrlər türk dünyası arasında dərin inteqrasiya meyilləri müşahidə olunur.

Son vaxtlar Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrində dinamizm müşahidə olunur. Bu prosesdə dünyada formalaşan yeni və daha fərqli tranzit, nəqliyyat-kommunikasiya şəbəkəsi mühüm rol oynayır. Ölkəmiz isə geostrateji mövqeyi və daha da genişlənən tranzit imkanları ilə bu prosesdə vacib həlqəyə, Şərqlə Qərb arasında etibarlı nəqliyyat qovşağına çevrilməkdədir.

Dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi Orta Dəhlizin əhəmiyyəti artmaqdadır. Azərbaycan Prezidentinin uzaqgörən siyasətinin nəticəsi olaraq ölkəmizdə bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Azərbaycan həyata keçirdiyi irimiqyaslı infrastruktur layihələri vasitəsilə əlverişli regional tranzit mərkəzinə çevrilməkdədir. Şərq-Qərb dəhlizi Avropa ilə Asiya arasında ən qısa, təhlükəsiz və iqtisadi baxımdan səmərəli bağlantı olaraq Avrasiya məkanında sərnişin və nəqliyyat daşımalarının gücləndirilməsinə böyük töhfə verəcək. Bu gün Orta Dəhlizə artan maraq heç də təsadüfi deyil. Çünki bu beynəlxalq nəqliyyat marşrutu Çindən, Qazaxıstandan, Xəzər dənizindən, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə qədər uzanır və Şərqdən Qərbə yükdaşımalarda son dərəcə əhəmiyyətli yoldur. Bu marşrutun ən vacib hissəsi isə təbii ki, Zəngəzur dəhlizi olacaq. Heç şübhəsiz, Zəngəzur dəhlizi, ilk növbədə, bölgənin inkişafında xüsusi əhəmiyyət kəsb edəcək, regionda yeni əməkdaşlıq formatının yaranmasına, sülhün və tərəqqinin təmin olunmasına xidmət göstərəcək. Ən əsası isə Zəngəzur dəhlizi bütün türk dünyasını birləşdirəcək. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Gün gələcək, Zəngəzurdan çıxıb, İstanbula qədər gedə biləcəyik. İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzi olma mövqeyi möhkəmlənəcək".

**Şəymən**

İsmayıl Qocayev

# Ombudsman artıq ölkədə söz sahibi olur

## Səlahiyyətlərin artırılması məsələlərə daha çevik, operativ yanaşmanı təmin edəcək

**İnsan hüquqları üzrə müvəkkilə (Ombudsman) yeni səlahiyyətlər verilməsi təklif olunur. Milli Məclisdə bununla bağlı qanun layihəsi birinci oxunuşda qəbul olunub. Dəyişikliyə əsasən, ombudsmanın fəaliyyətinin əsasları sırasına dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi daxil edilir.**

Ombudsman publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin "İnformasiya əldə etmək haqqında" qanunun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə də nəzarəti həyata keçirəcək. Müvəkkilə bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirmək də həvalə olunur. Eyni zamanda Ombudsman insan hüquqları sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin təhlilini apara, rəy və təkliflərini müvafiq sahədə monitorinq və qiymətləndirməni həyata keçirən quruma təqdim edə bilər.

İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Səbinə Əliyeva da deyib ki, vaxt keçdikcə zamanın tələbləri dəyişir və mövcud qanunda dəyişikliklər edilməsinin zərurəti olduqca böyükdür: "Konstitusiya Qanunu 20 il bundan öncə qəbul edilib. Ona görə hesab edirəm ki, hazırda müəyyən dəyişikliklərin qəbul edilməsi üçün zaman yetişib. Biz həm öz tərəfimizdən olan təklifləri, həm də beynəlxalq qurumların bizə tövsiyə etdikləri bir sıra dəyişiklikləri hökumət nümayəndələri ilə müzakirə etdik. Ombudsman təsisatı haqqında Konstitusiya Qanununa dəyişikliklərin olunması üçün proses başlanıb. Artıq qanun layihəsi Milli Məclisdə birinci oxunuşda qəbul edilib".




**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə "Şərq"ə deyib ki, İnsan Hüquqları üzrə müvəkkilə yeni səlahiyyətlərin verilməsi təqdirəlayiqdir. Ekspertin sözlərinə görə, bununla bağlı Milli Məclisə təqdim olunan qanun layihəsində bir çox yeniliklər öz əksini tapıb:** "Ombudsmanın səlahiyyət dairəsinin genişlənməsi həm də hüquqları pozulan vətəndaşlarımızın müvəkkilə müraciət etmək səlahiyyətlərinin də genişlənməsi deməkdir. Müxtəlif sferalarda, dövlət, publik hüquqi şəxslər, bələdiyyələr və başqa sahələrdə vətəndaşların pozulmuş hüquqlarından Ombudsmana şikayət etmək hüquqları genişlənir. Bu, insanlar üçün, onların hüquqlarının qorunması sahəsində dövlətin atdığı mühüm addımlardan biridir. Hesab edirəm ki, olduqca vacibdir. Səlahiyyətlərin genişləndirilməsi ilə bərabər Ombudsman Aparatının əməkdaşlarının sayının artırılması da təbii ki, nəzərdə tutulub. Əgər belə olarsa, yeni vəzifələrin öhdəsindən gəlmək imkanı yaradılar. Ombudsman Aparatının bu məsələlərə daha çevik, operativ yanaşması təmin ediləcək. Bütün hallarda ölkənin istənilən sahəsində, müəyyən qurumlar tərəfindən vətəndaşların hüquqlarının pozulmasına adekvat reaksiyaların olması müsbət haldır. Bu, dünya təcrübəsində nəzərdə tutulan səlahiyyətlərdir".

**Ç.Qənizadə vurğulayıb ki, Azərbaycanda insan haqlarının pozulması ilə bağlı zaman-zaman şikayətlər gündəmə gəlir və yəqin ki, bundan sonra da olacaq:** "Nə qədər ki, vəzifəsindən və səlahiyyətindən sui-istifadə edən məmurlar var, onlar insanların hüquqlarını pozmaqda maraqlı olacaqlar. Amma əsas məsələ dövlətin mövqeyinin necə olmasıdır. Dövlət öz vətəndaşının hüquqlarının qorunması istiqamətində addımlar atırmı? Ombudsmana verilən əlavə səlahiyyətlər dövlətin bu istiqamətdə həyata keçirdiyi siyasətin tərkib hissəsidir. Əminəm ki, başda İnsan hüquqları üzrə müvəkkil Səbinə xanım Əliyeva olmaqla Ombudsman Aparatı yeni səlahiyyətlər çərçivəsində daha çevik və operativ işləməklə insanlardan daxil olmuş şikayətlərin vaxtında və qanunauyğun şəkildə həll edilməsi uğrunda əlindən gələni edəcək".



# İran bölgədə faktiki təklənmiş vəziyyətdədir

## "Aqressiya və hərbi təhdidlərə də siyasi masada sözünün eşidilməməsinə görə əl atır"

**İranın Azərbaycandakı səfirliyi ölkəmizin sərhədində keçirilən hərbi təlimlərlə bağlı bəyanat yayıb. Səfirlikdən bildirilib ki, təlimlə əlaqədar Azərbaycan və İranın hərbi rəhbərliyi müzakirə aparıb.**

Qeyd olunub ki, İranın silahlı qüvvələrinin şimal-qərb bölgəsində manevr və təlimləri illik fəaliyyət təqviminə uyğun həyata keçirilir. Vurğulanıb ki, Azərbaycana olan dostluq və qardaşlıq münasibətini nəzərə alaraq, təlimlərə başlamazdan əvvəl Azərbaycan tərəfinə rəsmi nota verilib. Notadan əlavə, İranın silahlı qüvvələrinin baş qərargah rəisi, general-leytenant Baqerinin Azərbaycan Müdafiə naziri, general-polkovnik Zakir Həsənovla telefon söhbəti baş tutub: "İki dost və qardaş ölkə olan İran İslam Respublikası və Azərbaycan Respublikası münasibətləri daim düşmənlərin geniş təbliğatının hədəfində olub. Lakin iki ölkə rəhbərlərinin sayıqlığı onların məqsədlərinə çatmasına mane olub".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında deyib ki, SEPAH-ın rəsmi tviter səhifəsində təlimlərlə bağlı Xudafərin körpüsünün də əks olunduğu video yayımlanıb.** Videoya "SEPAH işğal altındakı Şimali Azərbaycan əyalətində yaşayan iranlılara mənalı mesaj göndərib" qeydi də əlavə edilib. Analitikə görə, bunun Xudafərinin azad olması tarixində tirajlanması Bakıya ünvanlanmış "mollasayağı" mesajdır: "Təlimlərlə bağlı İran tərəfinin rəsmi açıqlamasında "sülh və qardaşlıq" ifadələri yer alsa da, günlərdir sosial şəbəkə və media üzərindən Azərbaycana qarşı açıq mətnlə təhdidlər irəli sürülür. SEPAH-ın komandanı Hüseyn Salami də təlimlərin açılış mərasimində "Bizim qırmızı xəttimiz odur ki, sərhədlərdə heç nə dəyişilməsin, bölgənin bir küncündə hər hansı dəyişiklik olsa, tərəfsiz qalmayacağıq" sözləri ilə niyyətlərini rəsmi şəkildə bəyan edib. Bu təhdidlərə baxmayaraq, İranın bölgəyə hərbi-siyasi təsir imkanları heç olmadığı qədər məhduddur. Ermənistan ərazisindən bölgəyə müdaxiləsinə nə Rusiya, nə Qərb razı olar. Azərbaycan ərazisinə istənilən müdaxilə Türkiyə ilə üz-üzə gəlməklə yanaşı, Rusiyanın bölgədəki hazırkı maraqları və Qərbin maraqları ilə toqquşmaq deməkdir".

*A.Nərimanlı qeyd edib ki, İran bölgədə faktiki təklənmiş vəziyyətdədir:* "Aqressiya və hərbi təhdidlərə də siyasi masada sözünün eşidilməməsinə görə əl atır. Lakin təxribat xarakterli - "terror təhdidi", "İran ərazimə təhdidin yaranması", "sionizm" və s. addımlarla vəziyyəti gərginləşdirmək istəyəcəyi də istisna deyil. Hərçənd, mollalar reallığı qəbul etmək istəməsə belə bölgədə vəziyyət 27 sentyabr 2020-ci il tarixindən əvvəlki kimi deyil. Heç vaxt əvvəlki kimi olmayacaq da".

**İsmayıl Qocayev**

# Qarabağa yeni həyat verən Azərbaycan türk dünyasının qüdrətini nümayiş etdirir

## Allahşükür Paşazadə: "Ermənistan ölkəmizin Türk-İslam mədəni irsinə qarşı da təcavüz həyata keçirib"

**İşğalçı Ermənistan Azərbaycana qarşı təkcə etnik təmizləmə, soyqırımı deyil, ölkəmizin Türk-İslam mədəni və mənəvi irsinə qarşı da təcavüz həyata keçirib.**



Bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Gülüstan sarayında keçirilən Azərbaycan Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə Türk Dövlətləri Təşkilatının müsəlman dini liderlərinin 3-cü görüşü zamanı çıxışında deyib.



O qeyd edib ki, Azərbaycanın Qarabağ torpaqlarında mədəni-mənəvi irs abidələrinə qarşı vandalizm aktları, həqarətlər törətmiş, məscidləri tövləyə çevirərək orada İslamda haram sayılan heyvanlar saxlayıblar.

"Hətta pravoslav kilsələri və albanudi məbədlərinin mənşəyi saxtalaşdırılıb və qriqoryanlaşdırılıb. Dövlət rəhbərimizin qətiyyətli siyasi iradəsi, Azərbaycanın Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Qarabağda tarixi məscidlərimiz və məbədlər nəfis şəkildə bərpa və yenidən qurulmaqda, türk-İslam mədəniyyət xəzinəsinə əvəzsiz töhfələr verilməkdədir", - deyə A.Paşazadə bildirib.

**Allahşükür Paşazadə deyib ki, dağıdılmış şəhər və kəndlərimizə yeni həyat verən Azərbaycan dövləti türk dünyasının qüdrətini, qurucu mədəniyyətini, tolerant mənəviyyatını bütün dünyaya nümayiş etdirir.**

Onun sözlərinə görə, Ermənistan konstruktiv mövqe nümayiş etdirmir.

"Ermənistanın bəzi siyasi və din xadimləri barış, qarşılıqlı anlaşma mövqeyindən deyil, revanşizm, yeni müharibə ritorikası ilə çıxış edərək xalqların dinc yanaşı yaşamasına manea törədirlər. Böyük təəssüflə qeyd etməliyəm ki, münaqişə davam etdiyi illərdə sülh istiqamətində dəfələrlə birgə imza qoyduğumuz bəyanatların ruhuna xilaf çıxaraq Eçmiədzin bu gün də revanşizmin əsas təşkilatçılarındandır. Mən bu tribunadan erməni kilsəsinə, Eçmiədzinə müraciət edir, nə qədər gec deyil, xalqının taleyini, müqəddəratını düşünərək revanşizmdən əl çəkməyə, təxribatlara, qarayaxma kampaniyalarına və nifrət çağırışlarına son qoymağa, öz xalqına yeni müsibətlər deyil, nicat verəcək ideyalarla çıxış etməyə, məhvə məhkum etməməyə çağırıram",- deyə A.Paşazadə qeyd edib.

# Azərbaycanın yeni əməliyyatlar keçirəcəyi ehtimalları çoxalır

## İndi ən çox gərginlik sərhədin Daşkəsən zolağında müşahidə edilməkdədir

**"Azərbaycanın Ermənistanla sərhədin Laçın, Kəlbəcər, Daşkəsən istiqamətlərində hərbi əməliyyatları bərpa etməsi üçün əsaslar yaranır".**

**Bu sözləri siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Ermənistandan son zamanlar sərgilənən mövqe, hərbi-siyasi dairələrin revanşist tutumu Azərbaycanı adekvat cavab tədbirləri görməyə vadar edə bilər:** "Son günlər Ermənistan sərhəd zolağında Azərbaycan mövqelərini atəşə tutur. Yəqin etmək mümkündür ki, Azərbaycan Ordusu nəinki Laçın, Kəlbəcər, Daşkəsən istiqamətindəki, eləcə də Tovuz, Gədəbəy, Qazax zonasına yönələn atəş nöqtələrini də susdurmaq qabiliyyətini nümayiş etdirəcək. İndi ən çox gərginlik sərhədin Daşkəsən zolağında müşahidə edilməkdədir. Hərbi cəhətlərlə bunun izahı odur ki, Azərbaycan hərbçiləri həmin istiqamətdə sürətli möhkəmlənmə işləri ilə yeni mövqelər qururlar. İkinci bir cəhətə diqqət çəkməkdən ötrü isə sentyabrda sərhəddə baş verən genişmiqyaslı toqquşmaların nəticələrinə vurğu edilməlidir. Azərbaycan rəsmi şəkildə hələ də sentyabr döyüşlərinin hansı ərazi nailiyyətləri ilə nəticələndiyini açıqlamayıb. Bu, hərbi məzmunla o deməkdir ki, həmin ərazilərdəki bərkimə işləri tam yekunlaşmayıb. İrəvandan bufer zonaya dair təhlükəsizlik təminatları hələ də alınmayıb. Oktyabrın 18-də Ermənistanın Baş naziri Nikol Paşinyan Zəngəzur dəhlizi mövzusunda tvitlər atıb və bu məsələnin 10 noyabr bəyanatında təsbit olunmadığını bildirib. Həqiqətən də, 10 noyabr bəyanatında "Zəngəzur dəhlizi" sözü yer almayıb. Lakin Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında quru əlaqəsinin təmin edilməsi nəzərdə tutulur ki, bu da elə Zəngəzur vasitəsilə mümkündür".



"Hər nə olursa-olsun, ya zəlzələdən, ya da vəlvələdən Azərbaycan beynəlxalq konyunkturadakı qeyri-stabillik səbəbindən özünün sərhəd təhlükəsizliyini təmin etməyə məcburdur"

*Ekspert vurğulayıb ki, Zəngəzur dəhlizi sənəddə ad olaraq keçmir, amma bəllidir ki, Azərbaycan Zəngəzur dəhlizi məntiqi ilə həmin bəndi üçtərəfli bəyanatın mətninə daxil etdirib:* "Buna Rusiya da razılıq verib. Üstəgəl, Zəngəzur koridoru amili beynəlxalq konyunkturanın da nəzər nöqtəsində yer alır. 10 noyabrda "Zəngəzur"un adbaad mətnə salınmaması elə həmin zamanda Paşinyanı xilas etmək məqsədi daşıyırdı. Lakin Paşinyan sonradan bunu manipulyasiya vasitəsinə çevirdi və həmin şakərini yenə də göstərir. Hər halda Paşinyanın dəhlizə dair hərdəmxəyal açıqlamaları Azərbaycana güc tətbiqi üçün arqumentlər verir. Bakı bu işdə üçtərəfli bəyanatın tərəflərindən olan Rusiyanın da məsuliyyətini xatırlatmaq haqqına sahibdir. Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasındakı quru əlaqəsinin dəhliz məntiqi ilə təmin edilməsi beynəlxalq oyunçuların da marağında olduğundan Bakının, Türkiyənin strateji müttəfiqlik dəstəyi ilə koridoru açmaq tələblərinə qarşı prinsipial qlobal dirəniş yoxdur. İran isə sadəcə iqtisadi habın sərhəd dəyişikliyi ilə yekunlaşmasını istəmir ki, bu da prinsipial bir hədd sayıla bilməz".

**A.Kərimov qeyd edib ki, Azərbaycan Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən boyun qaçırmasına reaksiya olaraq hərbi təmayülləri göstərsə, ortaya çıxa biləcək siyasi gərginliklər tablosu ABŞ-Rusiya qarşıdurması kimi rənglənəcək:** "Yeni məsələ qlobal güclərin Azərbaycanın yarada biləcəyi nəticələrdə nə qədər pay sahibi olmaq uğrundakı yarışından gedir. Yoxsa Fransanı çıxmaq şərtilə nə ABŞ, nə Britaniya, nə Rusiya, nə də Çin Azərbaycana qarşıdır.

Fransanın mövqeyi isə daha çox Rusiyanın maraqlarına işləyir, hərçənd ki, Paris buna Moskva ilə gərgin münasibətlər fonu verməyə çalışır. Hər nə olursa-olsun, ya zəlzələdən, ya da vəlvələdən Azərbaycan beynəlxalq konyunkturadakı qeyri-stabillik səbəbindən özünün sərhəd təhlükəsizliyini təmin etməyə məcburdur.

Gələcək risklərdən sığortalanmaq və Ermənistanı onun xarici havadarlarının qucağında durmaqdan cəsarətlənib təxribatlar törətməməsi üçün Azərbaycanın yeni əməliyyatlar keçirəcəyi ehtimalları çoxalır".

**İsmayıl**

# Kiyev Tehranla əlaqələrinin bitirəcək

"ABŞ İranı da Ukraynadakı "bataqlığa" çəkib"



**Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba Ukrayna Prezidenti Volodimir Zelenskiyə İranla diplomatik münasibətləri kəsməyi təklif edib.**

Nazir qeyd edib ki, İranın hərəkətləri alçaqlıq və yalandır, biz buna dözməyəcəyik: "Axı İran bütün bu hərəkətləri müharibəyə qarşı olduğunu və heç bir tərəfə silahla dəstək verməyəcəyini bizə bildirdiyi bir vaxtda etdi. Ukrayna ilə münasibətlərin pozulmasına görə tam məsuliyyət Tehranın üzərinə düşür. "İranın pilotsuz təyyarələrinin Ukraynanın mülki infrastrukturunda çoxsaylı dağıntılar törətməsini, xalqımıza yaşatdığı ölüm və iztirabları, həmçinin, İranın Rusiyaya silah tədarükünün davam etməsi ilə bağlı məlumatları nəzərə alaraq mən Ukrayna Prezidentinə İranla diplomatik münasibətlərin kəsilməsinə dair təklif verirəm.

Biz heç vaxt anti-İran mövqeyi tutmamışıq. Amma İran işğalçılıq cinayətində və Rusiyanın ərazimizdə törətdiyi cinayətlərdə şərik olduqdan sonra bu gün biz çox aydın və dürüst mövqe nümayiş etdirəcəyik. Əgər İran Rusiyaya silah tədarükünü dayandırsa, biz münasibətlərin bütün spektrini bərpa etməkdən danışa bilərik".

**Ukrayna ilə İran arasındakı vəziyyətin bu həddə gəlməsinin gözlənilən olduğunu deyən siyasi şərhçi Kənan Novruzov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Ukrayna "Şahid" Pilotsuz Uçuş Aparatları ilə mübarizə aparmağa çalışır:** "İran XİN-i etiraf etməsə də, "Şahid" PUA larını Rusiyaya verir. Onlar hələ də təkzib edir ki, biz ruslara heç nə verməmişik. Amma faktlar göstərir ki, İran 1-2 aydır, öz PUA-larını Kremlə göndərməklə məşğuldur. Bu PUA-lar isə Ukrayna şəhərlərini dağıdaraq 100-lərlə insanın öldürür.

Bu səbəblə də əlaqələrin tamamilə kəsilməsi gözləniləndir. Bu indi olmasa belə, savaşın davam etdiyi bir neçə ay ərzində baş tutacaqdır. Bu fonda da Qərbin və Avropanın İrana sanksiyaları artacaq. Artıq KİV-lərdə belə bir fikrin formalaşması barəsində məlumatlar da yer alıb.

**Analitik qeyd edib ki, ABŞ İranı da Ukraynadakı bataqlığa çəkib:**

"Biz bilirik ki, Qərbin 3 böyük rəqibi var. Bunlar Rusiya, Çin və İrandır. Artıq Rusiya və İran Ukrayna bataqlığına çəkilib. Növbəti hədəfin isə Çin olacağını düşünürəm. Gələcəkdəki proseslərdə rəsmi Pekinin də adı hallansa, təəccüblənməərəm".

**Nihat Müzəffər**



# Evakuasiya başladı

## Putinin güvəndiyi yeni komandan şok etiraflar edib

**Rusiya Prezidenti Vladimir Putinin Ukrayna işğalına başçılıq edən general Surovikinin sözləri dünyada ilk xəbər oldu. Yerli hakimiyyət məğlubiyyətin mərhələ-mərhələ olduğunu təsdiqləyir və evakuasiyanın başladığı əraziyə mülki şəxslərin girişi qadağan edilib.**

Ukraynada İran istehsalı kamikadze pilotsuz təyyarələrdən istifadə edən Rusiya Tehran administrasiyasından ilk sifarişlə 1750 pilotsuz uçuş aparatı alıb.

İran hakimiyyəti ilk dəfə olaraq Rusiyaya pilotsuz təyyarələr və ballistik raketlər göndərdiyini təsdiqləyib. Adı açıqlanmayan iki məmur və bir diplomat Rusiyaya bir çox raketlər və pilotsuz təyyarələr göndərmək barədə razılığa gəldiklərini, ilk tədarükün bir neçə həftə əvvəl edildiyini söyləyib.

Tehrandan sızan məlumata görə, Moskva ilə əldə olunan razılaşma İnqilab Keşikçiləri və Milli Təhlükəsizlik Şurasının nümayəndə heyətinin oktyabrın 6-da Moskvaya səfəri zamanı əldə olunub.

Ukrayna Müdafiə Nazirliyinin kəşfiyyat xidmətini idarə edən Kirill Budanov 1750 pilotsuz təyyarə sifarişinə yenilərinin əlavə edildiyini bildirib.

İran rəsmi açıqlamalarında həmişə Rusiyaya kamikadze pilotsuz uçan aparat satdığını təkzib edib, lakin Ukrayna Tehran administrasiyası ilə bütün diplomatik əlaqələri kəsməyə hazırlaşır. Əsasən İran istehsalı olan kamikadze dronlardan istifadə edilən hücumlar oktyabrın 10-dan bəri Ukraynanın enerji infrastrukturunun üçdə birini məhv edib.

Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba İranla bütün münasibətləri pozacaqlarına işarə edərək, Avropa İttifaqından Tehrana qarşı yeni sanksiyalar tətbiq etməyi xahiş edib.

Kiyev administrasiyasının ən təəccüblü addımı İranın Yaxın Şərqdəki əzəli düşməni İsraildən təcili olaraq hava hücumundan müdafiə sistemi tələb etmək olacaq. İsrail mediası daha əvvəl silahların Ukrayna tərəfindən tələb olunduğunu, lakin rəsmi təklifin göndərilməsinin yeni dönüş nöqtəsi ola biləcəyini yazmışdı.

İndiyədək birbaşa Ukraynaya silah göndərməkdən çəkinən Təl-Əviv Ukraynanın son bəyanatlarına hələlik münasibət bildirməyib.

İsrailin ünlü "Haaretz" qəzeti bazar ertəsi axşam saatlarında Kiyevdən Müdafiə naziri Benny Gantz və onun həmkarı Oleksiy Reznikov arasında telefon danışığı üçün müraciət alındığını, lakin bu, Təl-Əviv tərəfindən rədd edildiyini yazır. Rusiyanın elə həmin gün səhər saatlarında İsraili Ukraynaya silah göndərməkdə ittiham etdiyini xatırladan "Haaretz" digər tərəfdən İsrail ilə Ukrayna arasında təmasların həftələrdir davam etdiyini bildirir.

"Haaretz"in məlumatına görə, İsrail və Ukraynanın müdafiə nazirləri bir neçə gün ərzində görüş keçirəcəklər.

Cəbhə xəttində axsayan rus ordusu isə fevralın 24-də başlayan işğaldan günlər sonra zəbt etdikləri Xersondakı "həssas" vəziyyəti ən yüksək səviyyədə etiraf etdi. Vladimir Putin tərəfindən Ukraynanın işğalına başçılıq etmək üçün təyin edilmiş general Sergey Surovikin Xerson şəhərinin "çətin vəziyyətdə" olduğunu və mülki əhalinin təxliyə ediləcəyini bildirib.

Ukrayna əsgərlərinin ABŞ-ın Xerson infrastrukturuna göndərdiyi uzaq mənzilli HİMARS raketlərini atdığını bildirən rus general, evlərin də hədəf alındığını iddia edib.

Yeni vəzifəyə təyin olunduqdan sonra ilk dəfə Rusiya dövlət televiziyasına çıxan general Surovikin "Rusiya ordusu təxliyənin təhlükəsiz keçməsini təmin edəcək" deyib.

Rus komandanlığının meydandakı böyük problemləri qəbul etdiyi barədə açıqlamaları yerli hakimiyyət orqanları tərəfindən də təkrarlanır. Rusiya tərəfindən təyin edilmiş işğal üzrə menecer Kirill Stremousov bildirib ki, Ukrayna qoşunları yaxın vaxtlarda şəhərin mərkəzinə hücuma başlaya bilər. Teleqram mesajında Stremousov Dnepr çayının qərbində yaşayanların xüsusilə risk altında olduğunu qeyd edərək, "Dediklərimi ciddi qəbul edin. Mən mümkün qədər tez evakuasiyadan danışıram" deyə bildirib.

Xerson fevral ayında başlayan hücumdan sonra Moskvanın ələ keçirdiyi ilk böyük şəhər oldu.

Ukrayna qoşunları bir neçə həftədir ki, tədricən Xersonun şimal və qərbindəki torpaqları ələ keçirir.

**Turan**

# Gənc nazirdən milli dava gözləməyin!

## Ruminə Purmuxtari ilk növbədə İsveç dövlətinin maraqlarına xidmət edəcək

**Cənubi Azərbaycandan olan 26 yaşlı gənc Ruminə Purmuxtari İsveçin iqlim və ətraf mühit naziri təyin olunub. O, hazırda İsveç hökumətində təmsil olunan ən gənc nazirdir. 26 yaşlı Ruminə Purmuxtari 1995-ci il noyabrın 12-də İsveçdə anadan olub. O, təhsilini Uppsala Universitetində siyasi elmlər sahəsi üzrə başa vurub.**

Ruminənin atası İbrahim Purmuxtari isə İranın Şərqi Azərbaycan vilayətinin Təbriz şəhərindən siyasi baxışlarına görə təqib və təzyiqlərə məruz qaldığından İsveçə köçüb. O, bir neçə il öncə vəfat edib. R.Purmuxtari 2019-cu ildə Liberal Gənclər Assosiasiyasının sədri, həmçinin Liberal partiya idarə heyətinin üzvü olub. 2018-ci ildən gənclər assosiasiyasının birinci vitse-prezidenti olub. 14 sentyabrda Liberal Gənclər Assosiasiyasının sədri vəzifəsini tərk edəcəyini açıqlayıb. Beləliklə, o, İsveçdə keçirilən parlament seçkilərində Stokholm qraflığının və Stokholm bələdiyyəsinin seçki dairələrində deputatlığa namizədi olub. Seçkilərdə 1762 səs toplayıb və mədəniyyət məsələlərindən məsul şəxs olub. O, həmçinin, bir hekayələr toplusu kitabının müəllifidir. Kitabında uşaqlıq illərindən, təhsil səyahətlərindən və irqçilik haqqında gördüklərini yazıb. Xəbərin yayılması ictimaiyyətdə bir sıra məsələləri də gündəmə gətirib. Sosial şəbəkə istifadəçiləri xarici ölkələrdə yüksək vəzifələrdə təmsil olunan soydaşlarımızın milli davamıza xeyir verə biləcəyini deyiblər. Xüsusən, Ruminə Purmuxtarinin atası kimi fəal olacağı, etimadı doğruldacağı vurğulanıb.



"Bizim üçün önəmli olan əsas məsələ bir Azərbaycan türkünün 26 yaşında, özü də İsveç kimi çox inkişaf etmiş bir ölkədə nazir kürsüsünə yiyələnməsidir"

**Siyasi şərhçi, tanınmış jurnalist Azər Həsrət "Şərq"ə açıqlamasında deyib ki, bu xəbər bir tərəfdən sevindiricidir. Ekspertin sözlərinə görə, soydaşımızın yaşadığı xarici ölkədə cəmiyyətə tamamilə inteqrasiya olunması, ictimai-siyasi həyatında yer alması təqdirəlayiqdir:** "O baxımdan soydaşımızın önə çıxması, gənc yaşda bir ölkənin naziri təyin olunması sevindirici haldır. Amma belə məsələlərlə Güney Azərbaycan və milli davamız arasında əlaqələrdə bir qədər ehtiyatlı olmaq lazımdır. İsveçdə bizdən fərqli düşünürlər. Orada belə məsələlərə kifayət qədər fərqli yanaşma sərgiləyirlər. Hər dövlətin öz siyasəti var. Ona görə də İsveçin naziri mənsub olduğu ölkənin siyasətinə zidd davrana bilməz. Hər şeydən əvvəl gənc xanımın İsveç dövlətinin qayda-qanunları, tələbləri, istəkləri üzərindən davranması məqsədəuyğundur. Yəni soydaşımızdan milli dava adamı kimi davranmasını gözləmək və tələb etmək yanlış olardı. Ondan bunu gözləməməliyik. Ümumiyyətlə, məsələni bu formada gündəmə daşımamalıyıq. R.Purmuxtari ilk növbədə İsveç vətəndaşıdır və nazirdir. Onun xidmət edəcəyi ilk məqam İsveç dövlətinin maraqlarıdır. Ona görə də gənc xanımdan "işlərini burax, bizim üçün çalış, yaxud öz işinlə yanaşı, milli dava üçün də nəsə et" kimi tələblər irəli sürməyə haqqımız yoxdur".

*A.Həsrət qeyd edib ki, xanımın şəxsi yanaşması, ideologiyası çox zaman xoşumuza gəlməyə də bilər:* "Hər kəsi təmkinli, anlayışlı olmağa dəvət edirəm. Bizim üçün önəmli olan əsas məsələ bir Azərbaycan türkünün 26 yaşında, özü də İsveç kimi çox inkişaf etmiş bir ölkədə nazir kürsüsünə yiyələnməsidir. Artığını istəməyək. Əlbəttə, xanım öz imkanları daxilində nəsə edərsə, etmək istəyərsə, çox sağ olsun. Əks halda onun siyasi fəaliyyətinə əngəl yaratmamalıyıq, əksinə, uğurlu çalışması üçün dəstək göstərməliyik. Vaxt gələr, siyasətdən gedər, o zaman milli dava ilə bağlı tələblərimizi irəli sürərik".

**İsmayıl Qocayev**

# Düşmən iki ay ərzində gərginliyi artıracaq

## Ermənistan sülh sazişinin imzalanması ilə bağlı siyasi qərar verə bilmir

**Oktyabrın 18-i saat 18:40-dan oktyabrın 19-u saat 01:45-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Qaraiman, Pəmbək və Günəşli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Daşkəsən rayonunun Təzəkənd və Astaf, Gədəbəy rayonunun Daryurd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan istifadə etməklə fasilələrlə atəşə tutub.**





Ordumuzun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**Ermənilərin sərhəddəki təxribatları ilə bağlı "Şərq"ə açıqlama verən hərbi ekspert Elxan Şıxəliyev söyləyib ki, düşmənin son günlərdə atəşkəsi intensiv şəkildə pozmaları gözlənilən idi.** Ehtimallar özünü doğruldur. Xüsusilə, Avropa İttifaqının mülki missiyasının Ermənistana səfəri başlayandan sonra bu özünü daha qabarıq göstərdi".

E.Şıxəliyevin qənaətincə, ermənilər texniki qrupa atəşkəsi, guya, Azərbaycan tərəfinin pozduğunu göstərməyə çalışır: "Sərhədlərin bərpası, dəhlizin açılması, sülh sazişi qeyri-qanuni silahlı birləşmələrin ərazidən çıxarılmasına zəmin olmadığını vurğulamaq istəyirlər.

Daşkəsən və Gədəbəydə atəşkəsin pozulmasını həmin istiqamətdə olan korpus komandirinə verilən göstəriş əsasında gerçəkləşdirirlər. Ermənistan nisbətən yüksəklikdə yerləşən istiqamətlərdən, yuxarıdan aşağı Azərbaycanın mövqelərini atəşə tutur.

Ermənistanın başı hələ müdafiə əməliyyatlarının aparılmasına qarışıb. Çünki yeni yaranan konfiqurasiyada yalnız mövqelərinin möhkəmləndirilməsi, bölmələrin yeni müdafiə imkanlarının yaradılması ilə məşğul ola bilərlər.

Atəşkəsin pozulması atıcı silalardan, xüsusilə manqalar səviyyəsində həyata keçirilir.

Görünür, təmas korpusundakı bölmələrə atəşkəsi intensiv pozmaq göstərişi verirlər. Nəticə etibarilə, texniki heyət sərhəddə baş verənlərin sənədləşdirilməsini, portokollaşdırılmasını ermənilərin təxribatı fonunda qeydə alacaq. Senariləşdirilmiş addımlardır.

İki ay ərzində gərginliyi artıracaqlar. Əlbəttə, belə durumlarda Azərbaycan Silahlı Qüvvələri adekvat cavab vermək məcburiyyətindədir.

Onlar da yararlanmaq məqsədilə sərhədlərin tanınması üçün uyğun zamanın yetişmədiyini iddia edəcəklər. Sülh sazişinin imzalanmasından ötrü siyasi qərar verə bilmirlər. Azərbaycanın irəli sürdüyü təkliflərlə müqavilənin imzalanmasını mümkünsüz sayırlar. Ən qısa yol kimi durumu gərginləşdirməkdə görürlər".

**Aygün Tahir**

# Tanınmış jurnalist direktor təyin edildi

## Elşən Məmmədova yeni iş yerində Məcid Məcidovu əvəzləyib



**2008-ci ildən fəaliyyət göstərən Qusar Olimpiya İdman Kompleksinə yeni direktor təyin olunub.**

Bu vəzifə tanınmış idman jurnalisti Elşən Məmmədova həvalə edilib. O, yeni iş yerində Məcid Məcidovu əvəzləyib.

E.Məmmədov "Report"a açıqlamasında məlumatı təsdiqləyərək, etimadı doğrultmaq üçün can-başla çalışacağını söyləyib.

Qeyd edək ki, Elşən Məmmədov 23 ilədək idman mətbuatında - "Şərq" və "Futbol+" qəzetləri, APA Sport, Lent.az və "Report" İnformasiya agentliklərində müxbir və idman şöbəsinin redaktoru kimi çalışıb, "Tərəqqi" medalı ilə təltif olunub.

E.Məmmədov eyni zamanda İdman Araşdırmalar Mərkəzinin rəhbəri kimi ardıcıl 9 il "İlin Qalibləri" layihəsini, eləcə də son iki ildə minifutbol və voleybol üzrə Zəfər Kuboku turnirlərini təşkil edib.

# Ukrayna Rusiyanın 4 qanadlı raketini, 8 PUA-sını məhv edib



**Rusiya növbəti dəfə Ukraynanın vilayətlərinə raket və pilotsuz uçuş aparatları ilə hücum edir, ölkə ərazisində partlayış səsləri eşidilir.**

"Report" UNIAN-a istinadən xəbər verir ki, Kiyev vilayəti hərbi administrasiyasının başçısı Oleksey Kuleba paytaxt istiqamətində atılan 5 raketin hamısının məhv edildiyini bildirib.

Şəhərin müxtəlif rayonlarında partlayış səsləri də eşidlir. Çerniqovsk vilayətində iki raket sıradan çıxarılıb. İvano-Franskovsk vilayətində də partlayışlar törədilib. Bölgənin Burştınsk İstilik Elektrik Stansiyası da atəşə tutulub.

Vinnitsa vilayəti hərbi administrasiyasının başçısı Sergey Borzov da bölgənin atəşə tutulması nəticəsində partlayışların olduğunu vurğulayıb. Bundan sonra vilayətin bir sıra rayonlarında elektrik enerjisinin verilməsində fasilələr yaranıb.

Ukrayna Hava Hücumundan Müdafiə Qüvvələri Rusiyanın 4 qanadlı raketi, 8 pilotsuz uçuş aparatı olmaqla 12 hədəfini məhv edib.

"Report" UNIAN-a istinadən xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin "Mərkəz" Komandanlığı məlumat yayıb.

# Damyan Krneviç:

## Aİ-nin Azərbaycan kimi tərəfdaşlara ehtiyacı var



**Avropa İttifaqının (Aİ) Azərbaycan kimi tərəfdaşlara ehtiyacı var.**

Trend-in məlumatına görə, bunu dünən ADA Universiteti nəzdində İnkişaf və Siyasət İnstitutunun Araşdırmalar siyasətinin təhlili şöbəsinin direktoru Damyan Krneviç "Aİ-nin Cənubi Qafqaza və Şərq tərəfdaşlığına gələcək yanaşması" adlı panel müzakirələrdə deyib.

"Bu gün Aİ başa düşür ki, İttifaqın hüdudlarından kənarda əməkdaşlığı genişləndirmək lazımdır və Azərbaycan bu baxımdan başlıca tərəfdaşlardandır", - deyə o bildirib.

Onun sözlərinə görə, Azərbaycan Aİ ilə 2017-ci ildən bəri davam edən hərtərəfli sazişlə bağlı danışıqları keyfiyyətcə yeni səviyyəyə çıxarıb.

D.Krneviç qeyd edib ki, Aİ-nin Azərbaycanla Ermənistan arasında sülh prosesi, o cümlədən, sərhədlərin delimitasiyası prosesində vasitəçilik rolu da çox vacibdir.

"Əgər Aİ Azərbaycan qarşısında bu öhdəlikləri yerinə yetirməsə, bütün Cənubi Qafqazda öz təsirini itirəcək", - o deyib.

# Avropa bölgəyə sülh gətirəcəkmi?

## Sərhəd missiyasının fəaliyyəti müəmmalı ab-hava yaradıb





İsmayıl Qocayev

**Cənubi Qafqaz regionunda vəziyyətin monitorinqi, təhlili və hesabatının təqdim edilməsi məqsədilə Azərbaycan-Ermənistan sərhədinə göndərilən 40 nəfərlik ekspert qrupu ətrafında müzakirələr genişlənməkdədir. Avropa İttifaqının təşəbbüsü, Fransa və Ermənistanın cəhdləri ilə ortaya atılmış "beynəlxalq missiya" ilə bağlı gözləntilər heç də birmənalı deyil.**

Azərbaycan ictimaiyyətinin böyük əksəriyyəti isə bütünlüklə beynəlxalq missiyaların əleyhinə mövqe sərgiləyir. Hesab edilir ki, Fransa kimi qərəzli ölkələrin təmsil olunduğu hər hansı missiya eyniylə Minsk Qrupu rolunu oynayacaq. Monitorinq missiyasının müvəqqəti xarakter daşıyacağı, prinsipcə, iki aydan çox davam etməyəcəyi vurğulansa da, müşahidəçilərin sayının açıqlanan rəqəmdən daha çox, həm də hərbçilərdən ibarət olacağı iddia edilir.

### Monitorinq qrupunun obyektiv mövqedə dayanacağı böyük şübhələr doğurur

**Politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında bildirib ki, həqiqətən missiyanın fəaliyyəti ilə bağlı müəmmalı ab-hava yaranıb.** Ekspert vurğulayıb ki, monitorinq qrupunun konkret hansı işlərlə məşğul olacağı, daha doğrusu, obyektiv mövqedə dayanacağı böyük şübhə doğurur: "Aydındır ki, beynəlxalq missiya bütün fəaliyyətini birbaşa Ermənistan tərəfi ilə əlaqələndirir. Avropa İttifaqının 40 nəfərlik ekspert qrupu Ermənistanın Xarici İşlər Nazirliyində, Müdafiə Nazirliyində görüşlər keçiriblər və missiyanın funksionallığı müəyyən olunub. Əgər sərhədə gələn beynəlxalq missiyanın "funksionallığı" müzakirə olunursa, deməli, onların bütün fəaliyyəti Azərbaycan əleyhinə yönələcək. Yəni missiya İrəvanın istəyi ilə çalışacaq. Təbii ki, belə bir missiya obyektiv və ədalətli monitorinq təşkil edə bilməz. Ermənistan rəhbərliyi özü açıq formada deyir ki, missiyanın məqsədi Azərbaycanın "erməni torpaqlarını işğal etməsi" faktını araşdırmaq və təsdiqləməkdir. İrəvan çalışır ki, bu metodla Azərbaycana təzyiq göstərilməsinə nail olsun. Əgər yeni missiya Ermənistanın əlində vasitəyə çevriləcəksə, təbii ki, onun "ölmüş" Minsk Qrupu ilə heç bir fərqi olmayacaq. Keçmiş həmsədrlərin də məqsədi münaqişəni saxlamaq idi".

# Britaniya kəşfiyyatı:

## Putin 4 generalı işdən qovdu



**2022-ci ilin fevralında Ukraynaya müdaxilə zamanı Rusiya qüvvələrinin operativ komandanlığına cavabdeh olan beş generaldan dördü artıq işdən çıxarılıb.**

Bakupost.az xarici KİV-ə istinadla xəbər verir ki, bu barədə Böyük Britaniya hərbi kəşfiyyatının gündəlik icmalında bildirilir.

İşdən çıxarılan generalları əvəz edən komandirlər, Britaniya hərbçilərinin fikrincə, "Rusiyanın döyüş əməliyyatlarını yaxşılaşdırmaq üçün indiyədək çox az iş görüblər".

Britaniya kəşfiyyatı istefaya göndərilən rus generalların adlarını açıqlamayıb.

İcmalda qeyd edilir ki, Ukraynada "xüsusi əməliyyat"a cavabdeh olan Rusiya hərbi rəhbərliyi öz vəzifələrinin öhdəsindən getdikcə daha çox gəlir: "Taktiki səviyyədə yeni səfərbər edilmiş ordunu təşkil və ona rəhbərlik etmək üçün təlim keçmiş kiçik zabitlərin çatışmazlığı getdikcə artır".

# Vəfat edən olmayıb

## Daha 65 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 65 yeni yoluxma faktı qeydə alınıb, 68 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 822 751 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 812 407 nəfər müalicə olunaraq sağalıb, 9 935 nəfər vəfat edib, aktiv xəstə sayı 409 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 959, hazırkı dövrədək isə 7 296 340 test aparılıb.*

# Tıxacları azaltmaq üçün iş saatları dəyişdirilməlidir

## Dövlət, özəl və təhsil müəssisələrinin fərqli iş saatlarında işə başlaması imkan verir ki, vətəndaşlar tıxacda az zaman sərf etsinlər

**Son dövrlər paytaxt yollarındakı tıxaclar Bakı sakinləri üçün ən ciddi problemlərdən birinə çevrilməkdədir. Bu ilin yanvar ayına olan məlumata görə, Azərbaycanda minik avtomobillərinin sayı 1 milyon 349 minə çatıb. Ümumi avtomobillərin sayı isə 1.7 milyondur. Ötən il ölkəyə 84 min 765 minik avtomobili idxal olunub. Bu ilin ilk 9 ayında isə sahibkarlar Azərbaycana 45 min 519 avtomobil gətiriblər.**

Avtomobillərin sayında son illər artım müşahidə olunsa da, Azərbaycan hər min nəfərə düşən avtomobillərin sayına görə dünyada heç də maşın sayının çoxluğu olan ölkələr sırasında yer almır. Azərbaycanda hər min nəfərə 170 maşın və ya 135 minik avtomobili düşür. Bu göstəriciyə görə ölkəmiz dünyada 107-cidir. Yəni Azərbaycandakı avtomobillərin sayı əksər region ölkələri ilə müqayisədə çox deyil.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, son 20 ildə Bakının infrastrukturunun kəskin inkişafı qeydə alınıb. Deputatın sözlərinə görə, əgər infrastruktur genişlənməsəydi, o zaman daha kəskin tıxaclar müşahidə oluna bilərdi:** "İnfrastrukturun inkişafı vacib idi və Bakı bu kontekstdən regionda seçilən şəhərlərdəndir. Tıxacların əsas səbəblərindən biri ölkədəki minik avtomobillərinin 70 faizindən çoxunun Bakıda istifadə olunmasıdır. Hər min nəfərə düşən avtomobillərin şəhərlər üzrə rəqəmləri göstərir ki, Bakı regionda ən çox avtomobilin istifadə olunduğu yaşayış məntəqələrindədir. Baxmayaraq ki, ölkə üzrə göstərici tamamilə fərqlidir. Bu baxımdan, tıxaclar əsasən Bakıda müşahidə olunur. Tıxaclar iqtisadi fəaliyyətə də neqativ təsir göstərir. Tıxaclarda itirilən zaman, həmçinin, əksər hallarda iqtisadi dəyər yaratmayan vaxt intervalıdır. ABŞ-ın iri şəhərlərində hər sürücü il ərzində 97 saat tıxacda qalır. Ən çox zaman Los-Angelesdədir: - 129 saat. Dünyada ən pis göstərici isə Moskva şəhərinə aiddir, orada hər sürücü ildə 250 saatını tıxacda keçirir. Bəs tıxacın azaldılması üçün nələrin edilməsinə ehtiyac var? İnfrastrukturun genişləndirilməsi vacibdir və bu istiqamətdə işlərin davam etdirilməsi təqdirəlayiqdir. Bununla yanaşı, heç bir ölkə sadəcə inkişaf etmiş infrastrukturla tıxac problemini



həll edə bilməyib. Digər və xüsusən dolayı hesab olunan tədbirlərə ehtiyac var. Əksər inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, iş saatlarının dəyişdirilməsi tıxacların aradan qaldırılması və sıxlığın azaldılması baxımdan vacib hesab olunur. Qərb ölkələrində olduğu kimi dövlət, özəl və təhsil müəssisələrinin fərqli iş saatlarında işə başlaması və fərqli saatlarda işi başa çatdırması imkan verir ki, vətəndaşlar tıxacda az zaman sərf etsinlər. Bu, avtomobildən istifadə edərək işə gələnlərin yanacağına da qənaət deməkdir".

**Parlament üzvünün fikrincə, Bakıda əksər dövlət və özəl sektor eyni vaxtda işə başlayır və iş saatı da eyni zamanda başa çatır. Bu da tıxacı artıran səbəblərdəndir:** "Bu baxımdan, dövlət sektorunun özəl sahəyə nisbətən daha tez işə başlaması və müqayisəli şəkildə əmək gününü daha tez bitirməsi tıxacları müəyyən qədər azalda bilər. Hətta dövlət sahəsində sektoral yanaşmanın da tətbiq edilməsi mümkündür. Oxşar mexanizm özəl sektor üçün də tövsiyə oluna bilər. Digər metod bir sıra təhsil müəssisələrinin növbəli şəkildə paytaxtdan kənara köçürülməsidir. ABŞ-da aparıcı universitetlərin böyük əksəriyyəti kiçik şəhərlərdə yerləşir. Bu, iri şəhərlərdə tıxacın azaldılmasına xidmət etməklə yanaşı kiçik yaşayış məntəqələrinin də inkişafını stimullaşdırır. İctimai nəqliyyatda xidmət keyfiyyətinin və tezliyin yüksəldilməsi Avropa ölkələrində tıxacın azaldılmasına xüsusi töhfə verib. Bakıda bu sahədə islahatların genişləndirilməsi və ictimai nəqliyyatdan istifadənin stimullaşdırılması olduqca vacibdir. Bütövlükdə, tıxacın azaldılması üçün alternativ metodlardan daha çox istifadə edilməsi olduqca vacibdir. Bir sıra ölkələrdə hətta bu problemin həlli üçün ayrıca proqramlar hazırlanıb və işçi qrupları fəaliyyət göstərir. Bu baxımdan, bu sahədəki tədbirlərin əlaqələndirilməsi və ünvanlığın artırılması tıxaclara qarşı mübarizəni gücləndirə bilər".

İsmayıl Qocayev

Müzakirə...



**Məktəblərdə nizam-intizam qaydalarını pozan şagirdlərə qarşı tətbiq ediləcək inzibati tədbirlər müəyyənləşib. Bu barədə Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev bildirib.**

# Şagirdlərin cəzalandırılması daha ciddi problemlər yaradacaq

Onun sözlərinə görə, inzibati tədbirlər şagirdlərin davranış səviyyələri nəzərə alınmaqla tətbiq ediləcək. Bunun üçün məktəblərdə şagirdlərin davranış pozuntularının ağırlıq dərəcəsi təsnifatlara bölünüb. Həmin təsnifatlar davranış pozuntularının ağırlıq dərəcəsini təyin edəcək. E.Əliyev bildirib ki, şagird davranış qaydaları ümumtəhsil məktəbləri üçün çərçivə xarakteri daşıyır: "Bu qaydalar əsasında məktəblər özləri də daxili qaydaları tərtib edə bilərlər. Nizamnamədə onlara bu səlahiyyət verilib. Məqsəd şagirdlərin bütün davranış qaydalarını nazirlikdən idarə etmək deyil".

Həmin səviyyələr aşağıdakılardır:

1-ci səviyyə: Yüngül səviyyəli qayda pozuntuları

Üzrsüz səbəbdən dərsə gecikmək, ev tapşırığını yerinə yetirməmək, böyüklərə qarşı nəzakətsiz davranmaq və s.

2-ci səviyyə: Orta səviyyəli qayda pozuntuları

Yalan danışmaq, həqiqəti gizlətmək və ya təhrif etmək, təhlükəsizlik qaydalarını pozmaq (məsələn, pəncərədən çölə əyilmək, sürahilərdə sürüşmək), başqalarına emosional-fiziki zərər vuran ehtiyatsız hərəkət və davranışa yol vermək və s.

3-5-ci səviyyə: Ciddi və ağır qayda pozuntuları

Başqasının əşyasına və ya məktəb əmlakına zərər vurmaq, əks cinsin nümayəndəsinə qarşı qeyri-etik şəkildə davranmaq, zorakılıq etmək, dalaşmaq və ya zorakı şəkildə qisas almaq və s.

Davranış səviyyələrinə görə tətbiq ediləcək inzibati tədbirlər aşağıdakılardır:

- müəllim baxışı, qeyri-verbal münasibət
- şagirdlərlə sakit söhbət
- xəbərdarlıq
- uzaqlaşdırma
- valideyn ilə əlaqə saxlamaq
- dərsdən sonra şagirdin məktəbdə saxlanması
- psixoloqa yönləndirmə
- sarı xəbərdarlıq məktubu
- narıncı xəbərdarlıq
- qırmızı xəbərdarlıq.

E.Əliyev qeyd edib ki, məktəbdaxili nizam-intizam qaydalarına riayət edilməsinə və qaydaları pozanların inzibati cəzaya cəlb edilməsinə nəzarət məqsədilə məktəblərdə İntizam Şuraları yaradılacaq. Şuraların yaradılması və tərkibində valideynlərin iştirakı məcburi olacaq.

Məlum məsələdir ki, İntizam Şuraları, şagirdlərə cəza kəsilməsi məqsədilə qayda pozuntularının təsnifatlaşdırılması, sarı, narıncı, qırmızı "kartlar", filan, hamısı son zamanlar məktəblərdə baş verən və sosial şəbəkələrdə yayılan görüntülərlə bağlıdır. Bir şagird digərini döyür, şagirdlər sinif otağında qayğanaq bişirir, şagird müəllimi lağa qoyur, müəllim... yox, müəllimlərlə bağlı, hələ ki, cəza tədbirləri düşünülməyib. Bəlkə yaxın zamanda bu da oldu. Bu gedişlə, artıq nələr görəcəyimizi təxmin etmək çox çətindir. Əsas məsələ isə budur; cəza tədbirləri ilə məktəblərdəki nizam-intizamsızlığı aradan qaldırmaq mümkün olacaqmı? Parlamentdə də İntizam komissiyası var, deputatları cəzalandırırlar, futbolda da sarı-qırmızı kart ənənəsi var, özünü yaxşı aparmayan futbolçunu hakim sahədən kənarlaşdırır, hətta ağır qayda pozuntusunda, məsələn, tərəf-müqabilinə ağır zədə yetirdikdə futbolçu bir neçə oyuna buraxılmır, yəni cəzası ağırlaşır. İndi nə edəcəklər, qaydanı pozan şagirdi məktəbdən çıxaracaqlar, ya sinifdə saxlayacaqlar? Bu, orta əsr "inkvizisiya" qanunlarına bənzədi bir az. Bəs ekspertlər hansı fikirdədir?

**Təhsil eksperti, fəlsəfə doktoru Kamran Əsədov "Şərq"ə açıqlamasında şagirdlərin inzibati cəzalara məhkum edilməsinin dünya təcrübəsində olmadığını dedi:**

- Belə bir şey dünyanın heç bir yerində yoxdur. Bunu özlərindən uydururlar, gecə yatıb yuxuda nə görürlərsə, səhər onu tətbiq edirlər. Təhsilin keyfiyyətini yüksəltmək, şagirdləri nizam-intizama cəlb etmək şagirdi cəzalandırmaqla mümkün olacaq iş deyil. Şagirdin cəzalandırılması dünyada qəbul edilmir. Şagirdi cəzalandırmaqla nə onu nizam-intizama cəlb etmək mümkündür, nə də təhsilə marağını artırmaq. Əksinə, şagirdi cəzalandırmaqla onda məktəbə, müəllimə qarşı aqressiyanı artırmış olacaqlar, şagirdlər müəllimlərə, məktəbə qarşı birləşəcək artıq. Bu da məktəblərdə daha ciddi problemlər yaradacaq. Təlim-tədris sistemində cəza anlayışı ümumiyyətlə yoxdur. Müəllim-valideyn əməkdaşlığını sağlam şəkildə qurmaq, şagirdi təşviq etmək, onda təlimə, təhsilə həvəs oyatmaq, şagirdə məsuliyyət yükləmək anlayışları var, bunu da bizim Təhsil Nazirliyi və tabeliyində olan qurumlar bacarmır. İntizam Şurası nə deməkdir? Necə yəni valideynlərin orada təmsil olunması məcburidir?! Valideyni intizam şuralarında təmsil olunmağa niyə məcbur etməlidirlər? Bütün məktəblərdə pedaqoji şuralar fəaliyyət göstərir. Bu pedaqoji şuralarda müəllimlərlə yanaşı valideynlər də təmsil olunur. İkinci bir şuraya heç ehtiyac yoxdur. Sadəcə, məktəblər artıq idarəolunmaz səviyyəyə çatıb. Məktəblilər də həmçinin. Bunun da baiskarı yarıtmaz fəaliyyət göstərən Təhsil Nazirliyidir, Azərbaycan təhsilini bu cür bərbad hala salanlardır. Mən artıq bir neçə dəfə onlara səslənmişəm ki, cənablar, xanımlar, sizin vəzifə başında qaldığınız hər saniyə təhsilimizi uçuruma daha da yaxınlaşdırır. Lütfən, istefa verin, gedin. İşi bacaranlar gəlsin.

**Fəlsəfə doktoru Rafiq İsmayılov isə "Şərq"ə açıqlamasında intizam şuralarının və cəza tədbirlərinin məcburiyyətdən yarandığını bildirdi:**

- Qədim dövrlərdə, ötən əsrlərdə seminariyalarda, monastır məktəblərində xüsusi cəza tədbirləri düşünürdülər. Biz keçmişə - falaqqa ənənəsinə qayıda bilmərik. Şagirdə fiziki zor tətbiq etmək yolverilməzdir, qanun pozuntusudur, uşağın hüquqlarını tapdalamaqdır. Təhsil Nazirliyinin inzibati cəza tədbirləri tətbiq etməsini daha çox onların çarəsizliyi ilə əlaqələndirirəm. Son hadisələrin fonunda görünür ki, buna ehtiyac yaranıb. Təhsil Nazirliyi intizam şuraları yaratmağa, qaydalar pozuntusunu təsnifatlara bölüb inzibati cəzalar müəyyənləşdirməyə məcbur olub. Başqa nə edəsən? Bu, uşaqdır. Onu başqa cür necə cəzalandırsınlar? Həbs etsinlər? Müəllim, məktəb rəhbərliyi məcburdur, hansısa təsir vasitələrindən istifadə etsin. Düzgün tərbiyə olunmamış, çətin islah olunan, xarakterində aqressivlik, qabalıq, kobudluq olan şagirdlər var. Həmişə müəllimləri, nazirliyi günahlandırırlar, amma özümüzü qoyaq o müəllimin, nazirliyin yerinə. Nə etsinlər? İpə-sapa yatmayan uşaqla necə rəftar edilsin? Əvvəllər xüsusi məktəblər vardı, gecə məktəbləri vardı. Çətin tərbiyə olunan uşaqlar üçün xüsusi məktəblər fəaliyyət göstərirdi. Bunlar bir növ "cərimə batalyonu"nu xatırladırdı. Dərsi pozan, davranışını bilməyən, ümumi təlim-tədris prosesinə ziyan vuran uşaqları belə məktəblərə yönləndirirdilər.





**Kamran Əsədov:** "Əksinə, məktəbə, müəllimə qarşı aqressiyanı artırmış olacaqlar, şagirdlər müəllimlərə, məktəbə qarşı birləşəcək artıq"

**Rafiq İsmayılov:** "Təhsil Nazirliyinin inzibati cəza tədbirləri tətbiq etməsini daha çox onların çarəsizliyi ilə əlaqələndirirəm"

Mən artıq düşünürəm ki, bəlkə də yaxın zamanda bu tip məktəblərin yaranması da artıq zərurət halını alacaq. Çünki problem getdikcə dərinləşir. Belə hesab edirəm ki, TN orta məktəblərdə intizam şuraları yaratmaqla, nizam-intizamı pozan şagirdlərə qarşı inzibati cəzaların tətbiqini nəzərdə tutmaqla məktəblərn daxili nizam-intizamının bərpa edilməsinə çalışmaq istəyir. Güman edirəm ki, bunun xeyri olar. Hər hansı şagirdlə bağlı yaranmış problemin valideynin iştirakı ilə həll edilməsi müsbət haldır. Ümid edək ki, yeni yaradılacaq şuralar faydalı olar, məktəblərdə ümumi ab-hava düzələr.

**Məlahət Rzayeva**

---

**"Hazırda sahib olduğu 28 min 800 min kvadrat kilometr ərazini əlində saxlamaq Ermənistan hakimiyyətinin ən böyük məqsədidir".**

# Qarabağ erməniləri Azərbaycan qanunlarına tabe olmalıdır

## Qərb və Ermənistan Qarabağın Azərbaycanın tərkib hissəsi olması fikri ilə getdikcə daha çox barışır



*Bu sözləri Bakı Politoloq Klubunun sədri Zaur Məmmədov deyib. Analitik bildirib ki, Qərbi Zəngəzur və Göyçənin gələcəkdə Ermənistanın tərkibində qalıb-qalmaması ilə bağlı məsələ ciddi şəkildə müxtəlif beynəlxalq kuluarlarda müzakirə olunur:*

"Azərbaycan buna nail oldu. Kommunistlərin qondarma qərarlarının qeyri-hüquqi olmasını nəzərə alsaq, SSR-yə daxil olarkən 114 min kv. km lik Azərbaycan Xalq Cümhuriyyəti və 9 min kv. km ərazisi olan Ararat Respublikasının xəritələri Cənubi Qafqazın yeni bölgüsünün reallığıdır. Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyini elan edərkən Cümhuriyyətin varisi olduğunu açıqladı. Varis məsələsi Qərbi Zəngəzur və Göyçə torpaqlarının gələcək müqqədəratını da aktuallaşdırır. Bu isə Fransanın təklif etdiyi 1991-ci AlmaAta, Rusiyanın təklif etdiyi 1974-ci ilin Baş Qərargahdakı xəritələrini qeyri-aktual edir. Ermənistanın 1991-ci il xəritələrinə üstünlük verməsinin səbəbi o idi ki, 1980-ci illərdə ankl avlar kolxozçuluq bəhanəsilə Ermənistana verilib. 1929-cu ilə qədər Qərbi Zəngəzur və Göyçənin əksər ərazilərinin Ermənistan SSR-yə verilməsi başa çatıb. Lakin iki ölkə arasında sərhədlərlə bağlı beynəlxalq hüquqa söykənən xəritələr 1920-ci ilin noyabr ayına qədərki xəritələrdir. Bu fonda Azərbaycanın hazırda əldə etdiyi nailiyyətlərdən biri Qarabağ mövzusunu beynəlxalq müzakirələrdən kənarlaşdırmaq oldu. Nəticə etibarı ilə Qərb nümayəndələrinin ermənistanlı həmkarları ilə görüşlərdə sərhəd, Qərbi Zəngəzurun "qorunması" məsələləri qabardılır".

**Ekspertin fikrincə, Qərb və Ermənistan Qarabağın Azərbaycanın tərkib hissəsi olması fikri ilə getdikcə daha çox barışır:**

"Bunun da nəticəsidir ki, Avropa İttifaqı və ABŞ Qarabağın dağlıq hissəsinin "müstəqilliyi" və ya "Ermənistana birləşdirilməsi" kimi çıxışları unudub. Əvəzində yerli ermənilərin müəyyən hüquqları qarşılığında mərkəzə inteqrasiya edilməsi variantının yeganə çıxış yolu olması vurğulanır. Ermənistan prezidenti də bir neçə gün əvvəl verdiyi açıqlamada İrəvanın vəziyyətlə barışmalı olduğunu qeyd etdi".

**İsmayıl**

# Deputatlar yeni təhsil qanununu müzakirəyə çıxardı

## “Ali məktəblərdə aşağı ixtisaslardan yüksək ixtisaslara keçidin qarşısı alınacaq”



**”Ali təhsil haqqında” qanun layihəsi Elm və Təhsil Nazirliyinin nümayəndələri, təhsil ekspertləri ilə müzakirə olunub”. Bunu Milli Məclisin Elm və təhsil komitəsinin dünən keçirilən iclasında komitə sədri Bəxtiyar Əliyev deyib. Komitə sədri bildirib ki, İşçi qrupun 8 iclası keçirilib:**

”İşçi Qrupun son iclasında artıq qanun layihəsinə komitədə baxılmasına razılıq verilib. Komitədə bu gün müzakirələri Elm və Təhsil Nazirliyi ilə birlikdə davam etdirəcəyik. İşçi qaydada bütün məsələlər öz həllini tapır”.

### “Qanunvericilikdə əsas boşluq xaricdə təhsil alan tələbələrin köçürülməsi ilə bağlıdır”

**Komitə sədri Bəxtiyar Əliyev bildirib ki, qanunvericilikdə əsas boşluq xaricdə təhsil alan tələbələrin köçürülməsi ilə bağlıdır:** ”Ölkə daxilində fəaliyyət göstərən özəl təhsil müəssisələri ilə bizim problemimiz yoxdur, bu təhsil müəssisələrində tələbələrin köçürməsi tənzimlənir. Amma xarici ölkələrin təhsil müəssisələrində təhsil alan tələbələrin köçürülməsi mövcud qaydalarla tənzimlənmirdi. Yeni təklif etdiyimiz qaydalar artıq bunu da əhatə edəcək”. Qeyd edək ki, ”Təhsil haqqında” qanuna təklif edilən dəyişikliyə əsasən, dövlətin vəzifələri sırasına ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması qaydalarını müəyyən etmək əlavə edilir.

**Bəxtiyar Əliyev bəyan edib ki, bəzi regionlarda olan orta məktəblərdə uzun illərdir müəllim çatışmazlığı var:** ”Müəllim kadrları hazırlayırıq. Deyirlər ki, müəllim ixtisasına qəbul çoxdur. Amma bu ixtisası bitirənlər ya gedib o çatışmazlıq olan məktəblərdə işləmək istəmir, ya da bitirdikləri ixtisas üzrə işləmirlər. Yəni biz müəllim ixtisasına qəbul edirik və müəllim yetişdiririk. Amma onları müəllim işləməyə məcbur edə bilmərik”. B.Əliyev qeyd edib ki, müəllimlərin yerdəyişməsində bu problemlər çox yaşanır: ”Müəllimlər vakansiya seçəndə Ağdamda yaşayırsa, Oğuzda olan vakansiyanı seçir. Seçim başa çatır, amma Ağdamdakı müəllim Oğuza getmir. Əsas probem budur. O zaman nazirlik də, təhsil müəssisəsi də fakt qarşısında qalır. Nazirlik də bu problemi görür. Sadəcə, biz vakansiya olan yerə ərizə verməklə bağlı ərizə verənə məhdudiyyət qoya bilmərik, mexanizmlər müəyyənləşdirilməlidir. Bu, eyni zamanda dövlət qulluğuna da aiddir”.



### “Doktorantlar köçürmə məsələsində problemlərlə qarşılaşırlar”

B.Əliyev vurğulayıb ki, indi qanuna təklif edilən dəyişikliklər doktorantları əhatə etmir. Magistratura və bakalavriat səviyyələrinə bu qaydalar şamil ediləcək. Komitə sədri bildirib ki, bununla bağlı doktorantlar bizə müraciət ünvanlayır: ”Doğrudur, bu gün doktorantların təhsil aldıqları müəssisələri dəyişdirmək istəyəndə bir çox ciddi problemlərlə qarşılaşırlar. Çünki hazırkı qanunvericilikdə elmi təşkilatların doktoranturası var, onlar ləğv edildikdə köçürmə məsələsi ortaya çıxır. Amma bütün hallarda tələbə deyiriksə, doktorant da tələbə hesab olunur. Bu kimi məsələlər yeni hazırlanan ”Ali təhsil haqqında” qanun layihəsində nəzərə alınmalıdır”.

### “Rayonların çoxunda müəllim yeri boşdur”

**Deputat Aqiyə Naxçıvanlı da qeyd edib ki, rayonların bir çoxunda müəllim yeri boşdur, bu problemi həll etmək lazımdır:** ”Oğuzda yaşayan İmişliyə düşür: ”Ola bilməz ki, bunu sistemləşdirək, elə Oğuzda yaşayan öz yurdunda, yuvasında işləsin”.

### ”Rektorlar köçürmə ilə bağlı akademik arayışların verilməsindən qaçırlar”

**Deputat Etibar Əliyev deyib ki, 1998-ci ildən 2013-cü ilə qədər 32 min tələbə köçürülüb. O bildirib ki, Dövlət İmtahan Mərkəzi 15 ixtisas seçmək hüququnu abituriyentə verir:** ”Əgər tələbə 550 bal toplayıb Tibb Universitetinə girməyibsə, o, Biologiya fakültəsinə gedir. Aydın olur ki, bal uyğunsuzluğu ucbatından həmin tələbə Tibb Universitetinə köçürülə bilmirdi. Çünki Təhsil Nazirliyi bal uyğunluq tələbini qoymuşdu. Digər tərəfdən, rektorlar köçürmə ilə bağlı akademik arayışlarının verilməsindən qaçırlar. Bu qanunun qəbul olunmasında hamımız maraqlıyıq. Çünki həm də bununla ali təhsil müəssisələrinin maliyyə müstəqilliyi bərpa da olunar”. Komitə sədri Bəxtiyar Əliyev qeyd edib ki, 2019-cu ilə qədər ali məktəblərin nümunəvi nizamnaməsinin 3.9-cu bəndində bu məsələ var idi:

### ”Hüquqi bazanın olmaması ilə bağlı kəskin fikir söyləmək lazım deyil”

**Millət vəkili Ceyhun Məmmədov vurğulayıb ki, universitetlərdə çoxlu tənzimlənməyən məsələlər var. Deputat bildirib ki, yeni hazırlanan ”Ali təhsil haqqında” qanun layihəsində bu məsələlər öz əksini tapır:** ”Digər tərəfdən, son vaxtlar qanundan çox qaydaya daha çox yönəlirik. İdarəçiliyin tam mərkəzləşdirilməsi prosesi gedir. Amma bəzən regionda yaranan problemin bu şəkildə həlli üçün xeyli vaxt lazım olur. Bu məsələni də araşdırmalıyıq”. Parlamentin Elm və təhsil komitəsinin üzvü İsa Həbibbəyli deyib ki, tələbələrin bir ali məktəbdən digərinə köçürülməsi sahəsində 2013-cü ildən təkmilləşmə prosesi gedir. O bildirib ki, uzun illər bu proses ali təhsil müəssisələrinin nümunəvi Nizamnaməsinə əsasən həyata keçirildiyindən bir çox hallarda pərakəndəliyə və qeyri-şəffaflığa səbəb olur: ”Lakin indiki halda bu gün köçürmələrlə bağlı qaydaların qanunvericilik səviyyəsinə qaldırılması bu qaydaları daha da ciddiləşdirməyə və yaxud hamı üçün məqbul olan hüququ təmin etmək üçün əhəmiyyətlidir. Bu, ali məktəblərdə köçürmələrdə aşağı ixtisaslardan yüksək ixtisaslara keçidin də qarşısını alacaq”.

**İsmayıl Qocayev**

# Bir sinifdə şagird sayı 20-25 nəfər olmalıdır

## “Əlavə korpuslar tikilməsə belə fərqli məkanlarda yeni məktəblər inşa olunmalıdır”



**Milli Məclisin payız sessiyasının dünən keçirilən plenar iclasında deputat Rauf Əliyev siniflərdə şagird sıxlığından şikayətlənib.**

O bildirib ki, bir sinifdə 40-50 nəfər oturubsa, o təhsildə keyfiyyətdən danışmaq çox çətindir.

Millət vəkili aidiyyəti qurumlara müraciət edərək, problemi aradan qaldırmaq üçün növbəti ildən məktəblərdə yeni korpusların tikilməsini təklif edib.

Şagird sıxlığının həddən artıq olduğunu deyən təhsil eksperti Elçin Əfəndi ”Şərq”ə vurğulayıb ki, siniflərdəki maksimal şagird sayı 20-25 olmalıdır: ”Auditoriyada 45-50 nəfər şagirdin təhsil alması doğru deyil. Çünki 45 dəqiqəlik zaman kəsiyi, bir müəllimin 45-50 nəfər təhsil alana mövzuları çatdırmasına və ev tapşırıqlarını yoxlamasına kifayət etmir. Nəticə etibari ilə də bu təhsilin keyfiyyətindən söz açmaq, özünü aldatmaq olar. Bu sıxlıq əsasən Bakı şəhərinin mərkəzindəki məktəblərdə daha çox müşahidə olunur. Regionlarda isə buna o qədər də rast gəlmirik. Digər tərəfdən Abşeron rayonunun təbiyindəki təhsil ocaqlarında oxumalı olan uşaqlar, mərkəzə axın edirlər. Bunun səbəbi isə Hökməli, Müşviq, Binə və s. kimi qəsəbələrdə məktəblərin sayının az olmasıdır. Bu da şagirdlərin mərkəzdəki axınına səbəb olur. Bununla da təhsil alanlar həm uzaq məsafə qət etməli olurlar, həm də sıxlıq yaranır”.

Ekspert qeyd edib ki, 3-4 minlik şagird tutumu olan məktəblərdə 6-7 min təhsil alan var: ”Bu məktəblərin əlavə korpuslara ehtiyacı var. Əlavə korpuslar tikilməsə belə fərqli məkanlarda yeni məktəblər tikilməlidir. Yeni təhsil ocaqlarının inşası ilə həm sıxlığın qarşısı alınacaq, həm də məktəblərin idarəetməsindəki çətinlik aradan qalxacaq. Digər tərəfdən məktəblərin sayının artırılması yeni iş yerlərinin açılması da deməkdir. Bu gün 4440 dan çox məktəbdə, 1 milyon 600 min şagird təhsil alır. Biz nəzərə alsaq ki, əhali sayı durmadan artır, bu sıxlığın yaxın 5-10 il ərzində daha da çoxalacağı istisnasızdır. Ona görə də adekvat tədbirlər görülməlidir”.

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı



# "Biz ailə modelinə ciddi fikir verməliyik"

## Fərqanə Mehmanqızı: "Yaxşı olar ki, ailə modelinin ənənəvi şəklinə qayıdışla bağlı sosial tədbirlər həyata keçirilsin"

**Sosial Tədqiqatlar Mərkəzi ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi günümüz üçün aktual olan sosial tədqiqat həyata keçirib. Tədqiqatın hədəfi ölkəmizdə uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolunun müəyyənləşməsidir. Tədqiqatı əhatə edən layihə uşaq hüquqlarının təminatı və böyüməkdə olan gənc nəslin inkişafı ilə bağlı genişmiqyaslı məsələləri özündə əks etdirir.**

Layihə çərçivəsində müxtəlif sosial mövzuları əhatə edən "Azərbaycanda uşaqların ailə-cəmiyyət münasibətlərində yeri və rolu" ictimai rəy sorğusu keçirilib. İctimai rəy sorğusunun yekunları dünən keçirilən konfransda açıqlanıb. Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc bu barədə məlumat verərək bildirib ki, mərkəzin hazırkı tədqiqatı isə uşaq və yeniyetmələrin sosial-mədəni və yaradıcı inkişafı üçün asudə vaxtın təşkili, texnoloji vasitələrin bütün həyat sahələrinə sirayət etməsi, xüsusilə uşaqlar üçün yeni münasibət növləri və tələbatları yaratması, ailə institutunun hər bir fərdin həm fiziki, həm də mənəvi cəhətdən formalaşmasında müstəsna yerinin təsdiqlənməsi, onlayn tədrisə keçidin uşaqlara üstünlüklərlə yanaşı, müxtəlif problemlər gətirməsi, uşaqların əmək vərdişləri, yaxud qanunsuz əməyə cəlbi və məktəbəqədər təhsil və digər məsələlər tədqiqatın predmeti olub: "Ölkəmizdə 1825 uşaq bağçası var. Bu o deməkdir ki, hər 4 uşaqdan yalnız biri bağça ilə təmin olunur. Baxmayaraq ki, hər il dövlət yeni müəssisələrin inşasını bir nömrəli məsələyə çevirib. Peşə seçimi dövründə uşaqların gələcək ixtisas axtarışları texniki peşə təhsili müəssisələrin sayının azlığı ilə qarşılaşır. Belə ki, orta məktəbi başa vuran məzunların 66 faizi hər hansı ali və peşə təhsili olmadan cəmiyyətə atılır". Sorğulardan biri yeniyetmələrin kimləri, hansı peşə sahiblərini nümunəvi şəxs olaraq gördüyü ilə bağlı olub. Sorğu nəticəsində oğlanların 25 faizinin idmançıları, 8.6 faizinin müğənniləri özünə nümunəvi şəxs kimi götürdüyü məlum olub. Rəyi soruşulan qızlardan 8.6 faizi müğənniləri, 7.6 faizi isə alimləri, oğlanların 16 faizi hərbçiləri özünə nümunəvi şəxs kimi götürüb. Jurnalistləri nümunə götürdüyünü deyən yeniyetmə oğlanların sayı 0.5 faiz, qızlar isə 2.8 faiz təşkil edib. Bundan başqa, məşhur şəxslərdən özünə heç kimi nümunə götürməyən yeniyetmə oğlanların sayı 32.7 faiz, qızlar isə 41.6 faiz olub. Qeyd edək ki, sorğu 12-16+ yaş qruplarındakı 2400 respondent arasında aparılıb.

"Ailədə kimin davranış və şəxsiyyətini nümunə kimi görürsünüz?" sorğusunun nəticələrinə görə, Azərbaycanda 10 məktəblidən biri ailəsindəki heç kimin davranış və şəxsiyyətini nümunə kimi görmür. Sorğuda 2400 respondentin və 24 ekspertin rəyi öyrənilib. Sorğu Bakı və Abşeron, Quba-Xaçmaz, Dağlıq-Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran iqtisadi rayonlarını əhatə edib. Tədqiqatın əsas məqsədi ölkədə uşaq hüquqlarının təmin edilməsinə, onların marağının qorunmasına, bu sahələrdəki problemlərə və müsbət təcrübələrə dair ölkədə ümumi vəziyyətin təsvirini sosioloji tədqiqat vasitəsilə öyrənmək olub. Tədqiqatda qarşıya qoyulan məqsədə nail olmaq üçün şəxsi inkişaf və asudə vaxtın təşkili, internetdən istifadə, ailə ilə münasibətlər, tədris, uşaq əməyi, uşaq hüquqları üzrə vəzifələri yerinə yetirmək nəzərdə tutulub. Qeyd olunan mövzular hər biri ayrı-ayrılıqda tədqiqatın vəzifəsi olmaqla, bir sıra metodların kompleks istifadəsi ilə öyrənilib. Bura həm kəmiyyət sorğusu, həm keyfiyyət müsahibələri, eyni zamanda müvafiq elmi ədəbiyyatın təhlili aiddir. "Şəxsi inkişaf və asudə vaxtın təşkili" bölməsində valideynlər tərəfindən uşaqların məktəbdənkənar vaxtının necə təşkil edilməsi sosioloji sorğu üzərindən təhlil edilib. Eyni zamanda uşaqların maraqlarının təmin olunmasında, habelə asudə vaxtının təşkilində ailələrin maddi vəziyyəti ilə uzlaşdırılması araşdırılıb. Yeniyetmə və gənc məktəblilərin şəxsiyyət kimi formalaşmasında, gələcək peşə seçimində ailənin və ətraf insanların təsirləri təhlil edilib. "İnternetdən istifadə" bölməsində müasir dövrün informasiya-kommunikasiya tələbatının uşaqlar üzərindəki təsirlərindən bəhs edilir. İnternetin yaratdığı asılılıq, uşaqların internet resurslarından istifadə etmək bacarıqları, informasiya-kommunikasiya sahəsində yeniyetmə və gəncləri cəlb edən məqamlar yer alıb. "Ailə ilə münasibətlər" bölməsində valideynlərin uşaqlar üzərindəki təsirlərinə dair sosioloji tədqiqat aparılıb. Burada uşaqlara ailədə verilən tərbiyədən, onlara qarşı davranışlardan, diskriminasiyalardan bəhs edilir. Sorğu vasitəsilə ailə daxilində ünsiyyət formaları, ailə üzvləri ilə psixoloji yaxınlıq və sair bu kimi sosioloji məqamlar təhlil edilib. Respondentlər "ailə üzvləri və qohumlarından daha çox kimi özünə nümunəvi şəxs kimi götürmüsən" sualına da cavab verib. Məsələn, atanı oğlanların 44,2 faizi, qızların isə 21,1 faizi seçib. Əksinə, ananı nümunə kimi göstərənlərin 43,1faizi qız, 12,5 faizi oğlandır. Eyni qanunauyğunluğu babanı daha çox oğlanların, nənəni qızların seçməsini, daha sonra bibi, xala, əmi, dayı seçimində də görə bilərik. Bu, bir daha sübut edir ki, nümunə kimi seçilən şəxs yetişməkdə olan şəxsiyyətin özünü identifikasiya etdiyi, davranışlarını ona nəzərən qurduğu insandır. Ümumi faiz göstəricilərində nəzərəçarpan əsas məsələ ata və ananın qazandığı faiz göstəricilərinin digər ailə üzvlərinin qazandığı faizlərdən kəskin fərqlə irəlidə olmasıdır. Bu, öz-özlüyündə labüd görünsə də, eyni zamanda dolayı yolla uşaqların məhz nuklear ailə üzvlərinə yönümlü olmasının göstəricisi ola bilər. Ancaq diqqəti cəlb edən digər məsələ ailədə heç kimi nümunə kimi görməyən respondentlərin statistik əhəmiyyətli 8,1faiz toplamasıdır, yəni təqribən hər 10 məktəblidən biri ailəsindəki heç kimin davranışı və şəxsiyyətini nümunə kimi görmür. "Tədris" bölməsində şagirdlərin səriştələrə yönəlik təhsil mühitinin yaradılması, məktəbə bağlılıq, təlim prosesinə uyğunlaşma, psixoloji-sosioloji adaptasiya məsələləri tədqiq edilib. Burada orta məktəblərdə psixoloji işin təşkilində valideyn-müəllim münasibətlərinin təşkili də yer alıb.



**Psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə açıqlamasında bu cür rəy sorğularının ictimai problemlərin öyrənilməsində böyük əhəmiyyət daşıdığını bildirdi:**

- Biz bu gün uşaqların fiziki və mənəvi inkişafının düzgün istiqamətdə aparılmasını istəyirik və buna səy göstəririksə, uşaqların fikirlərini, düşüncələrini bilməliyik. Uşaqlar ailəyə, valideynlərə, məktəbə nə dərəcədə bağlıdır, ictimaiyyətdə baş verənlərdən nə dərəcədə xəbərdardırlar, öz gələcəklərini görə bilirlərmi, peşə, ixtisas seçimi edə bilirlərmi... Əgər yeniyetmələr böyük faiz fərqi ilə müğənniləri, yaxud idmançıları nümunə olaraq görürsə, bu, heç də yaxşı göstərici sayılmaz. Deməli, bu uşaqların ailələri, valideynləri ilə bağları o qədər də möhkəm deyil. Məktəblə, müəllimlərlə də münasibətlərində problem var. Sosioloji sorğular günümüzün reallıqlarını üzə çıxarır. Eyni zamanda reallıqların ölkəmizin gələcəyi naminə müsbət istiqamətə dəyişdirilməsi üçün imkan da verir. Bu günün uşağı sabahın yeniyetməsi, gələcəyin gəncidirsə, nümunəvi şəxsləri özünə nümunə olaraq görməlidir. 44 günlük Vətən müharibəsindən sonra hərbçi olmaq istəyənlərin sayında gözəgörünən artım müşahidə edilir. Bu, əlbəttə sevindiricidir. Hər bir vətəndaşın ən ümdə vəzifəsi Vətəni qorumaqdır və əgər yeniyetmələr arasında hərbçi olmağa üstünlük verənlər çoxdursa, bu, müsbət haldır. Biz ailə modelinə də ciddi fikir verməliyik. Azərbaycanda tarixən böyük ailələr dominant olub. Lakin son zamanlarda ailələr də kiçilib, valideyn və uşaqlarla məhdudlaşmağa başlayıb. Bu cür kiçik tərkibli ailələrdə böyüyən uşaqlar daha çox qapalı, ictimaiyyətə açıq olmurlar. Geniş ailələrdə yaşayan, 2-ci, 3-cü dərəcəli qohumlarla sıx təmasda olanlarsa daha sərbəst, özünəgüvənli olur. Yaxşı olar ki, ailə modelinin ənənəvi şəklinə qayıdışla bağlı sosial tədbirlər həyata keçirilsin.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Xariclə bağlı olan din adamları nəzarətə götürülməlidir

## "Ölkədə kifayət qədər axund var ki, məscidi öz ata mülkü hesab edir

**Ötən gün Yeni Günəşlidə yerləşən Xanım Fatimeyi-Zəhra məscidinə basqın olub. Hücum edən şəxslər maskalı olub. Məsciddə ibadət edənlərin söylədiyinə görə, hadisə zamanı xəsarət alan olmayıb, hücumun məqsədi sadəcə təşviş yaratmaq olub. Hadisənin başvermə səbəbinə gəldikdə isə bu, məscidin axundunun dəyişdirilməs ilə bağlı olub.**

Məlumata görə, dünən həmin məscidə yeni axund təyin olunub. Çıxarılan axund və oradakı bəzi işçilərin adamları isə məscidə "maskalı hücum" etməklə nizam-intizamı pozmağa çalışıb, yeni axundun köhnə kollektiv tərəfindən qəbul edilməməsi görüntüsünü yaratmağa çalışıblar.

İddialara görə, məscidin keçmiş axundu Hacı Surxay və məscidin digər işçiləri işindən məcbur azad edilib.

Hacı Surxay 15 ildir ki, Xanım Fatimeyi-Zəhra məscidində axund olaraq fəaliyyət göstərirdi. Məsələ ilə bağlı Daxili İşlər İşlər Nazirliyinin Mətbuat xidmətindən Bakupost.az -a bildirilib ki, hadisə ilə bağlı polisə müraciət olunmayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən isə insidentlə bağlı sualımız belə cavablandırılıb: "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan



Respublikası Prezidentinin Fərmanından irəli gələn məsələlərin həlli məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası" hazırlanıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 24 may 2022-ci il tarixində "İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara din xadiminin təyin olunması, attestasiyası və tutduğu vəzifədən azad edilməsi Qaydası"na uyğun olaraq 39 vakant vəzifənin tutulması üçün müsahibə elan olunub. Mirnasir Mirbağır oğlu Nağıyev (imam), Fərid Əli oğlu Qasımzadə və Ayaz Gülağa oğlu Həşimov (imam müavinləri) 02 avqust-13 avqust tarixlərində keçirilən müsahibədə uğur qazanaraq müvafiq vəzifələrə təyin olunublar.

Sentyabrın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli yaşayış sahəsində yerləşən Xanım Fatimeyi Zəhra məscidinə təyin olunmuş din xadimlərinin təqdimatı keçirilib".

**İlahiyyatçı Tural İrfan isə "Şərq"ə hadisə barədə əhatəli məlumatı olmadığını deyib:** "Ancaq bir qədər əvvəl əvvəlki axundun çıxarılması və yenisinin təyin olunması haqqında məlumatlıyam. Ümumiyyətlə, belə hallar ona görə baş verir ki, ölkədə xarici qüvvələr din adamlarının əli ilə özlərinə təsir rıçaqları hazırlamaq istəyir. Əsasən İrana bağlı adamlar, orada təhsil və təlim görmüş şəxslər vaxtilə aidiyyəti qurum tərəfindən məscidlərə təyinat alıb. Ancaq həqiqət ondan ibarət olub ki, o adamların əli ilə və onların başına topladığı kütlə vasitəsi ilə nələrəsə hazırlığın əsasını qoyurmuşlar. Nəticədə də məscidlərə rəhbər təyinatı Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə verildikdən sonra müvafiq bilinməyən şəxslər azad edilərək əvəzinə daha münasib, savadlı, milli düşüncədə olan kadrlar təyin edilir. Bunu həzm edə bilməyən qüvvələr isə ola bilsin, xarici ağalarının da havadarlığı və fətvası ilə bu cür təzyiqlər göstərməyə, stabil vəziyyəti gərginləşdirməyə çalışırlar. Bildirim ki, ölkədə kifayət qədər belə axund var ki, məscidi öz ata mülkü hesab edir və özünü ömürlük oranın sahibi bilir. Ancaq Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin bu kimi işlərin nizama salınmasındakı səyləri danılmazdır və əminəm ki, o idarə belə halların hamısını tədricən tənzimləyəcək. Din adamı da düşünməlidir ki, vəzifə əbədi deyil və tabe olduğu qurum onu işindən azad edə bilər. Xaricə bağlı olan din adamlarının da hamısı nəzarətə götürülməlidir. Məscid ibadət evidir. Ora kim təyin olunubsa, bu, dövlətin işidir. Hesab edirəm ki, məscidlərdə və digər yerlərdə din adı altında hansısa iğtişaşa meyillənən adamlar başa salınmalıdır, əks halda aidiyyəti orqanlar elələri barədə çox ciddi tədbir görməlidir".

**Şəymən**



# "Fəlakətin resepti"

## Növbəti pandemiya buzlaqlardan gələ bilər

**Növbəti pandemiya yarasalar və ya quşlardan deyil, buzların əriməsindən yarana bilər.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Arktikadakı Hazen gölünün torpağının genetik analizləri göstərib ki, buzlaqların əriməsi yaxınlığında virusun yayılma riski daha çox ola bilər.

Qeyd olunur ki, qlobal temperaturun artması buzlaqların əriməsinə səbəb olur, bu da tələyə düşmüş virus və bakteriyaların vəhşi təbiətə çatma şansını artırır.

Araşdırma "Proceedings of the Royal Society B" jurnalında dərc olunub.

2014-cü ildə Fransanın Eks-Marsel şəhərindəki Milli Elmi Tədqiqat Mərkəzinin alimləri Sibirdə donmuş torpaqlardan götürülmüş virusu canlandıra biliblər.

Araşdırmada iştirak edən Jean-Michel Claverie BBC-yə bildirib ki, bu cür buz təbəqələrinin aşkarlanması "fəlakətin resepti" olacaq.

Koronavirus (Covid-19) pandemiyası: 2019-cu ilin sonunda ortaya çıxan yeni növ koronavirus pandemiyası qalan müddətdə 630 milyon insana yoluxub. Ümumilikdə 6,5 milyondan çox insan həyatını itirib.

"Qara Ölüm" vəba epidemiyası: Bəşəriyyət tarixində ən ölümcül epidemiyaların başlanğıcında "Qara ölüm" olaraq da adlandırılan vəba epidemiyaları. Ən böyük vəba epidemiyalarından biri qara taun epidemiyasının 75-100 milyon insanın ölümünə səbəb olduğu təxmin edilir. Dağıdıcı vəba epidemiyası Asiyanın cənub-qərbində başlayıb və 1340-cı illərin sonlarında Avropaya çatıb.

Viral hemorragik qızdırma epidemiyası: 4 ayrı RNT virusunun yaratdığı "Qanaxma qızdırması" epidemiyaları 1545-1548-ci illər arasında Meksikada baş verib və təxminən 5-15 milyon insanı öldürüb.

İspan taunu: Bu dəfə vəba 1647-1652-ci illər arasında İspaniyanı məhv edib. İspaniyada 76 min insanın ölümündə "Qara Ölüm" səbəb olmuşdu.

Xolera epidemiyası: 1817-1824-cü illərdə Asiya və Avropada ortaya çıxan vəba epidemiyası 1899-1923-cü illər arasında təxminən 1.500 min insanın ölümünə səbəb olub. Vibrio cholerae bakteriyasının törətdiyi vəba bağırsaq infeksiyasına, sonra isə şiddətli ishala səbəb olan xəstəlikdir. 1817-ci ildə Yaponiyada, 1826-cı ildə Moskvada, 1831-ci ildə Berlin, Paris və Londonda vəba epidemiyası törədib. 1912-1913-cü illər Balkan müharibəsi zamanı Osmanlı imperiyasında vəba epidemiyası ciddi itkilərə səbəb olmuşdu.

Çiçək epidemiyası: Hər yaşda və hər cinsdə görülən, irinli qabarcıqlar tökərək üzə yara izləri buraxan qızdırmalı, ağır və yoluxucu xəstəlik olan çiçək xəstəliyi tarixdə ən çox ölümə səbəb olan xəstəliklər siyahısındadır. Uşaqlarda daha çox rast gəlinən çiçək xəstəliyinin iki növü var: Variola major və Variola minor.

Tif epidemiyası: Tif epidemiyası 1848-ci ildə 20.000 insanın ölümünə səbəb olub.

İspan qripi: İspan qripi 1918-1920-ci illər arasında H1N1 virusunun ölümcül alt növündən qaynaqlanır. İspan qripi bəşər tarixində məlum olan ən böyük epidemiyalardan biri olub, 18 ay ərzində 50-100 milyon insanı öldürüb. Birinci Dünya müharibəsinin son aylarında bütün dünyaya təsir edən ispan qripinin 4 ildir davam edən müharibənin sona çatmasında rol oynadığı iddia edilir.

**Turan**

# Fişinq mesajların sayı artıb

## "Son 2-3 ildə müştərilərin kartlarından milyonlarla vəsait çəkilib"



**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumatına əsasən son günlərdə "Kapital Bank"ın adından veb-səhifə yaradılaraq vətəndaşlara fişinq mesajları göndərilir və pul vəsaiti təklif olunur.**

Nazirlikdən bildirilib ki, onlardan vəd olunan məbləği əldə etmək üçün təqdim olunan saxta veb-səhifəyə bank və digər fərdi məlumatlarını daxil etmək tələb edilir.

Elektron Təhlükəsizlik Xidməti vətəndaşlara belə vədlərə etimad etməməyi, şübhəli keçidlərə daxil olmamağı tövsiyə edir. Hər hansı şirkət və ya qurum adından belə məlumatlar aldıqda öncə həmin müəssisə ilə əlaqə saxlayaraq və yaxud qurumun rəsmi saytına daxil olaraq məlumatın düzgünlüyündən əmin olmaq məsləhət görülür. Həmçinin bu kimi hallarla qarşılaşdıqda vətəndaşlardan "1654" qaynar xətti, www.cert.az saytı və ya reports@cert.az e-poçt ünvanı vasitəsilə Elektron Təhlükəsizlik Xidmətinə məlumat verməк xahiş olunur.

**Məsələyə münasibət bildirən internet-media eksperti Səbuhi Abbasov "Şərq"ə açıqlamasında söyləyib ki, problem çox ciddidir:** "Son bir ildə fişinq mesajların sayı artıb. Doğrudur, daha əvvəl də mövcud idi. Lakin bu qədər aktual deyildi. Əvvəlki vaxtlarda insanlar mesajlar və ya saxta profillər vasitəsi ilə aldadılırdı.

O üsulların qarşısı alındıqdan sonra kibercinayətkarlar daha ağıllı və peşəkar fırıldaqçılıq olan fişinq mesajlara əl atdılar. Bu cür halların artmasının ardında isə maarifsizlik dayanır. Çünki insanlar istifadə etdikləri tətbiqlər və xidmətlər barəsində tam məlumatlı deyillər.

Çox təəssüf ki, xidmət sahəsi göstərən qurumlar maarifləndirici reklamlara üstünlük vermir. Nəticədə də onların müştəriləri zərər görür. Biz son 2-3 ili təhlil etsək, görərik ki, müştərilərin kartlarından milyonlarla vəsait çəkilib.

Onun tapılması isə ən yaxşı halda 20-25 faiz nəticə ilə başa çatır. Fırıldaqçılar xarici dövlətlərin nömrəsi ilə açılmış hesablardan istifadə etdikləri üçün onların tapılması da çox çətindir. Orta hesabla 10 nəfərdən ikisi isə onların tələsinə düşür.

*Ekspert qeyd edib ki, bundan ən yaxşı çıxış yolu maarifləndirmədir:*

"Bu marifləndirmə televiziyaya az baxan, internetdən istifadə edə bilməyən şəxslər üçün canlı tətbiq edilməlidir. Hətta deyərdim ki, orta məktəblərdə bununla bağlı tədbirlər həyata keçirilməlidir.

Bu hadisənin birinci tərəfidir. İkinci məsələ isə müştərilərə xidmət verən sektorların mobil tətbiqlərində quraşdırdığı təhlükəsizliklə bağlıdır. Yəni vətəndaş aldanıb şəxsi kodlarını üçüncü bir şəxsə ötürürsə, aparılan şübhəli əməliyyat bloklanmalıdır. Üçüncü çıxış yolu isə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin keçirmiş olduğu proqramlar və tədbirlərlə bağlıdır.

Bununla bağlı isə müəyyən assosiasiyalar yaradılıb və işlər görürlər. İnkişaf etmiş ölkələrdə isə bu problemlərdən çıxış yolu 4-5 il öncə tapılıb. Ancaq bizdə təhlükəsizlik kifayət qədər deyil və qurbanların sayı günü-gündən artır".

**Nihat Müzəffər**

# Qərbin sanksiyaları bütün dövlətlərə xəbərdarlıqdır

## Əgər Türkiyə Rusiyanın "Mir" ödəmə sistemindən imtina edirsə, Azərbaycan da ehtiyatlı davranmalıdır



**Rusiyaya qarşı sanksiyalar Azərbaycan və Rusiya arasında ödənişlər də daxil olmaqla, bir çox çətinliklərə səbəb olub. Bu isə Rusiya Federasiyasında yaşayan və işləyən azərbaycanlıların iqtisadi durumuna mənfi təsir edir. Eyni zamanda iki ölkə arasında idxal-ixrac əməliyyatları, mal mübadiləsi prosesini də bir xeyli çətinləşdirir.**

Bu baxımdan mövcud problemi aradan qaldırmaq üçün bir qrup şəxslər tərəfindən zaman-zaman Azərbaycanda Rusiyanın "Mir" ödəniş sisteminin tətbiqi imkanları müzakirə predmetinə çevrilir.

Hazırda "Mir" kartı doqquz ölkədə - BƏƏ, Vyetnam, Özbəkistan, Belarus, Qazaxıstan, Ermənistan, Qırğızıstan və Tacikistanda fəaliyyət göstərir. Kartın köməyi ilə nəinki ödəniş etmək, həm də bankomatlardan nağd pul çıxarmaq olar.

Qeyd edək ki, bir müddət əvvəl Rusiya xarici işlər nazirinin müavini Aleksandr Pankin də Rusiyanın Azərbaycan, Çin və Misirlə "Mir" ödəniş kartından istifadəyə dair danışıqlar apardığını bildirmişdi.

**Azərbaycan Mərkəzi Bankının baş direktoru Fərid Osmanov isə bir müddət əvvəl deyib ki, Rusiyanın milli ödəniş kartı olan "MİR" Azərbaycanda fəaliyyət göstərən bankların ekvayrinq şəbəkəsində qəbul edilmir.** O, həmçinin "Mir" ödəniş sisteminin Azərbaycanda fəaliyyətinin təmin edilməsi ilə əlaqədar işlər aparılmadığını da qeyd edib.

"Azərbaycanda Rusiyanın ödəmə sistemi olan "Mir" kartları niyə istifadə olunmur" sualına aydınlıq gətirən iqtisadçı-ekspert Rauf Qarayev "Şərq" ə açıqlamasında deyib ki, sanksiyalar çərçivəsində Rusiyanın bank sistemi SWİT-dən ayrıldı. Bundan sonra Rusiya alternativ "Mir" ödəniş sistemini yaratdı. Moskva alternativ bank sistemi yaratmaqla özünə müttəfiq ölkələrlə "Mir" sistemi vasitəsilə ödənişlər həyata keçirirdi. Hazırda Rusiya ilə aktiv ticarət əməliyyatları aparan postsovet ölkələrinin bir çoxlarında "Mir" kartlarından istifadə olunur. Bu kartlar ümumilikdə 158 bank tərəfindən istifadəyə yararlıdır.

**Ekspertin sözlərinə görə, 31 mart 2015-ci il tarixində Rusiya öz müstəqil milli əməliyyat sistemini yaradıb. Bu sistem öncə Rusiyanın daxilində istifadə üçün nəzərdə tutulub:** "Bu gün isə "Mir" kartı Belarusiya, Cənubi Koreya, Qırğızıstan, Tacikistan, Kazaxıstan, Ermənistan respublikalarında istifadə olunur. Göründüyü kimi bu sırada Azərbaycan yoxdur. Bu o deməkdir ki, "Mir" kartı ümumiyyətlə ölkədə istifadə olunmur. Rusiya "Mir"kartlarının Azərbaycanda istifadəsi ilə bağlı təklif versə belə bunun üçün əsaslı səbəb olmalıdır. Bu səbəbi də dünya birliyinə başa salmaq lazımdır ki, ölkə bankları sanksiyalarla üzləşməsin. Fikir versəniz, bir-iki ölkəni çıxmaq şərti ilə "Mir" kartının istifadə olunduğu ölkələrin əksəriyyəti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatlarının üzvləridir".

**Bank məsələləri üzrə ekspert Əkrəm Həsənov isə deyib ki, Azərbaycan bankları "Mir" ödəniş sistemindən istifadə etdiyi təqdirdə ciddi sanksiyalarla üzləşə bilərlər:** "Düzdür, bu sistemdən istifadə edib-etmədiyimizə dair konkret məlumat mövcud deyil. Bir müddətdir ki, "Mir" ödəniş sisteminin kartları da sanksiyalarla üzləşib. Yəni ABŞ və Avropa İttifaqı Rusiyanın sanksiyalardan yayınmaq üçün işə saldığı "Mir" ödəniş sisteminin digər ölkələrdə fəaliyyətini məhdudlaşdırmağa çalışır. Hətta bununla bağlı ABŞ Maliyyə Nazirliyinin saytında "Mir"lə əməkdaşlıq edən ölkələrə xəbərdarlıq da yerləşdirilib. Bu xəbərdarlıqdan sonra Qazaxıstan, Vyetnam, Özbəkistan, Türkiyə kimi ölkələr "Mir" ödəniş kartlarından istifadəni dayandırıb. Hamı da başa düşür ki, bu addım sanksiyalara görə atılıb. Əgər Türkiyə kimi qüdrətli dövlət bu məsələdən imtina etdisə, vəziyyətə diqqətli yanaşmaq lazımdır. Ona görə də düşünürəm, Azərbaycanda bu sistemdən istifadə ilə bağlı rəsmi bir addım atmağa ehtiyac yoxdur. Əgər bizim banklar indiyədək bu sistemdən istifadə edirdilərsə, bundan sonra etməyəcəklər".

**Şəymən**



## "Qərbi Azərbaycan bizim bir parçamızdır"

Məlahət İbrahimqızı: "Ermənilər bu torpaqların onların olmadığını çox gözəl bilirlər"

**"Ermənistan sülh sazişini imzalamamaq, sərhədlərin delimitasiya və demarkasiyası, Zəngəzur dəhlizinin açılması məsələsini dalana dirəmək üçün dezinformasiyalar yayır".**

Bu barədə "Şərq"ə millət vəkili Məlahət İbrahimqızı bildirib. Xanım parlamentari qeyd edib ki, müharibə bitdiyi gündən ölkə başçımız əlini barış üçün rəsmi İrəvana uzadıb. Amma təcavüzkar Ermənistan min bir bəhanə ilə bundan yayınıb: "Erməni lobbisinin və diasporunun gücü Ermənistan dövlətinin gücündən çoxdur. Son günlər onların sərhəddə də davamlı təxribat törətdiklərini görürük. Onlar bir tərəfdən təxribat törədir, digər tərəfdən də dezinformasiya yayırlar ki, Azərbaycan bizə təzyiq edər deyə Göyçəni tərk edirik.

Halbuki, Göyçə tarixən Azərbaycan torpağıdır. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini Avropa da Göyçə, Zəngəzur daxil olmaqla tanıyıb. Biz o dövlətin varisiyik. Ermənilər bu torpaqların onların olmadığını çox gözəl bilirlər. Zəngəzur, Göyçənin hər bir qarışında bizim dədə və babalarımızın ruhu, məzarı var. Qərbi Azərbaycan bizim bir parçamızdır.

Onlar o qədər məkrli düşməndilər ki, indi bizi beynəlxalq ictimaiyyətin gözündən salmaq üçün belə saxtakarlıqlara əl atırlar. Bunlar heç bir nəticə verməyəcək".

**Günəş Mərd**

## BDU-nun tələbəsi vəfat edib



**Bakı Dövlət Universitetinin (BDU) Biologiya fakültəsinin III kurs tələbəsi Bənövşə Rəcəb qızı Dedeyeva vəfat edib.**

Universitetdən verilən xəbərə görə, Bənövşə Dedeyeva beyində damar genişlənməsi səbəbindən rəhmətə gedib.

## Samuxda IX sinif şagirdinə qarşı zorakılıq edilib



**Samux rayonunun Qiyaslı kənd orta məktəbində IX sinif şagirdi olan oğlan sinif yoldaşı tərəfindən seksual zorakılığa məruz qalıb. Sinif yoldaşına qarşı seksual hərəkətlər edən şagird bu hərəkətləri kamera vasitəsi ilə çəkib.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupunun baş inspektoru polis kapitanı Eşqin Qasımov faktı təsdiqləyib. O bildirib ki, hadisə barədə Samux Rayon Polis Şöbəsinə məlumat daxil olan kimi faktla bağlı cinayət işi başlanıb: "Faktla bağlı müvafiq ekspertiza təyin olunub. Ekspertizanın nəticəsindən sonra məsələyə hüquqi qiymət veriləcək. Hələlik hadisəni törədən şagird orta məktəbdə dərslərini davam etdirir".

# Uşaq çox, bağça yox!

## Onların yerinə şadlıq sarayları, salonlar və ticarət obyektləri tikildi

**Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc ölkəmizdə fəaliyyət göstərən bağçaların azlığı məsələsinə diqqət çəkib. O bildirib ki, hazırda 1825 uşaq bağçası var. Buna görə də hər dörd uşaqdan yalnız biri bağçaya gedən bilir.**



*Təhsil eksperti Nadir İsrafilov problemi doğuran səbəblərdən "Şərq"ə danışarkən bildirib ki, bu istiqamətdə dəfələrlə dəyişikliklər edilib:* "Bir müddət bağçalar icra hakimiyyətlərinin nəzarətinə keçdi. Vəziyyətin daha da pisləşdiyinə görə onlardan alınıb Elm və Təhsil Nazirliyinə verildi. Ölkə başçısı tərəfindən 2003-cü ildə təsdiq olunan strategiyada da məktəbəqədər təhsil və uşaq bağçaları ilə bağlı məsələlər öz əksini tapdı. Hətta məktəbəqədər hazırlıq qrupları uşaq bağçalarının nəzdində olmalı idi. Uşaq bağçalarının da azlığı həmin qrupların məktəblərin nəzdinə keçməsinə səbəb oldu. İş o yerə gəlib çatdı ki, dövlət başçısı hündürmərtəbəli binaların alt mərtəbələrinin uşaq bağçalarına verilməsi ilə bağlı tapşırıq verdi. Amma yenə də problem kökündən həll olunmadı. Bağçalarda yerlərin azlığı müxtəlif səbəblərlə bağlıdır. Məsələn, biz özəl sektoru inkişaf etdirmək üçün bir müddət üç yüzə qədər uşaq bağçasını özəlləşdirməyə çıxardıq. Təəssüflər olsun ki, həmin bağçalar təyinat üzrə işləmədi. Onların təyinatı dəyişdirildi. Üç yüz bağçadan iki yüzə yaxınının yerində şadlıq sarayları, gözəllik salonları, ticarət obyektləri tikildi. Prosesə nəzarət edilmədi və vəziyyət bu yerə qədər gəlib çıxdı" .

### "Hər adam uşağını özəl bağçaya qoya bilmir, qiymətlər uyğun deyil"

**Təhsil ekspertinin sözlərinə görə, son zamanlar özəl bağçaların sayı artıb. Amma ordakı qiymətlər də vətəndaşları qane etmir:** "Qiymətlər insanların əksəriyyətinin sosial vəziyyətinə uyğun deyil. Məcburiyyət qarşısında qalan insanlar, ailədə bütün üzvlərin işlədiyinə görə uşaq üçün dayə tuturlar. Sonra da biz sosial şəbəkələrdə həmin dayələrin uşaqlara göstərdiyi şiddət səhnələrinin şahidi oluruq".

N.İsrafilov sonda qeyd edib ki, bağçalar məhz icra hakimiyyətlərinin buraxdığı səhvlərə görə onlardan alınıb Elm və Təhsil Nazirliyinə verilib. İndi bu problemi məhz nazirlik çözməlidir".

**Güniş Mərd**

# Tələbə köçürmələri daha çox ixtisaslarla bağlıdır

## Gənclərin iş tapa bilməməsi sadəcə problem deyil, milli faciədir

**"Bakalavriat səviyyəsi üzrə tələbələrin köçürülməsi ilə bağlı boşluqlar "Təhsil haqqında" qanuna təklif edilən dəyişiklik layihəsində nəzərə alınacaq. Etiraf edim ki, magistratura və doktorantura səviyyəsi üzrə köçürülmə məsələsindəki problemlərlə bağlı bizə çox sayda müraciət olur".**

Bunu Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini, Elm və ali təhsil şöbəsinin müdiri Yaqub Piriyev parlamentdə "Təhsil haqqında" qanuna təklif edilən dəyişiklik layihəsinin müzakirəsi zamanı deyib.

Nazirlik rəsmisi qeyd edib ki, Azərbaycanda magistratura səviyyəsi üzrə köçürülmə olmayıb: "Magistratura üzrə mövzular ilk 3 ayda təsdiq olunur. Baxmayaraq ki, ali təhsil müəssisələrinə muxtariyyət verilsə də, fənlərlə bağlı elə dəyişiklik edilir ki, 3-cü semestrdə keçirilən fənn 1-ci semestrdə keçirilir".

O söyləyib ki, 3000 tələbə köçürülməsi üçün müraciətdən 500-ü geri qayıdıb: "Elə tələbə var ki, 4 dəfə köçürülüb. Bəzən olur ki, tələbə valideynin israrı ilə ixtisas seçib, lakin 1 il və ya 6 ay oxuyandan sonra qərar qəbul edir ki, ixtisasımı dəyişməliyəm. Magistratura səviyyəsi üzrə daxili qaydaları təsdiqlənməlidir".

*Bakalavriat səviyyəsi üzrə tələbələrin köçürülməsi ilə bağlı hansı boşluqlar var?*

**Təhsil eksperti Elçin Əfəndinin "Şərq"ə açıqlamasına görə, tələbələrin bir ali təhsil müəssisəsindən digər ali təhsil müəssisəsinə, yaxud bir ixtisasdan digərinə köçürülməsi Elm və Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə həyata keçirilir. Bu da adətən fevral və iyul aylarına təsadüf edir:** "Tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə və təhsilalma formasının dəyişdirilməsi, eləcə də ölkəmizdə yerləşən orta ixtisas təhsili müəssisələrində, magistratura səviyyəsində təhsilalanların köçürülməsi müvafiq müsabiqə şərtlərinə cavab verdikdən sonra təsdiqlənir. Mövcud qaydalara əsasən, prosesdə bütün ali təhsil müəssisələrində təhsil alan tələbələr iştirak edə bilir. O şərtlə ki, onların universitetə akademik borcu olmasın. Tələbələrin bir ali təhsil müəssisəsindən digərinə köçürülməsinə yalnız əsaslı səbəblər olduğu halda (ailə qurduqda, sağlamlıqla bağlı problem olduqda, yaşayış yerini dəyişdikdə və s.) icazə verilir. Dövlət adından təsisçi funksiyalarını həyata keçirən digər nazirlik, dövlət komitəsi və ya idarələrin tabeliyində olan dövlət ali təhsil müəssisələrinə tələbələrin köçürülməsi tabe olduqları qurumun və Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir.



*"Azərbaycanda hər 100 nəfərdən 95 nəfəri arzulamadığı, heç xəyalına gəlməyən ixtisaslar üzrə oxuyur. Sonra da əmək bazarında yer tapa bilmir"*

Bir ali təhsil müəssisəsindən digərinə köçürülən, ixtisasını dəyişən tələbələr (dövlət sifarişi əsasında təhsilalanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) təhsillərini yalnız ödənişli əsaslarla davam etdirirlər. Təhsilalma formasını dəyişən və ya köçürülən (dövlət sifarişi əsasında təhsil alanların eyni ixtisas üzrə köçürülməsi istisna olmaqla) tələbələr təhsil alacağı qrup üçün müəyyən edilmiş məbləğə uyğun təhsil haqqı ödəyirlər.

Xarici ölkələrin ali təhsil müəssisələrindən Azərbaycan Respublikası ali təhsil müəssisələrinə köçürülərkən əsas nəzərə alınan əsas göstərici isə tələbənin təhsil aldığı ali təhsil müəssisəsinin dünyanın ən yaxşı ali təhsil müəssisələri reytinqlərində yer alması və tələbənin xarici ölkə ali təhsil müəssisələrində əyani təhsil almasıdır. DİM tərəfindən keçirilən qəbul imtahanlarında iştirak etdiyi halda tələbənin topladığı balın həmin ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmaması və tələbənin akademik göstəriciləri də əsas rol oynayır".

**Y.Piriyevin qaldırdığı məsələyə gəldikdə isə ekspert deyib ki, bəzi tələbələr bir ixtisas üzərində qərarlaşa bilmədiyi üçün az qala hər il oxuduğu universiteti və ya ixtisası dəyişir.** Məncə, tələbə transferi ilə bağlı yuxarı kurslara məhdudiyyət qoyulmalı və ancaq birinci, ikinci kursların bu prosesdə iştirakına şərait yaradılmalıdır. Hər tələbəyə isə yalnız bir semestrdə köçürülmə haqqı verilməlidir: "Tələbələrin universitet və ya ixtisas dəyişməsinin müxtəlif səbəbləri var. Bəziləri illik təhsil haqqının yüksək olmasına, bəziləri ixtisasını sevmədiyinə görə, bəziləri isə təhsil aldığı sahə üzrə əmək bazarında nə qədər ehtiyac olub-olmamasına görə bu seçimi edir. Təbii ki, ali və orta ümumtəhsil müəssisələrinin verdiyi təhsilin keyfiyyətinə görə də bu addımı atan tələbələr var".

**Digər təhsil eksperti Elşən Qafarov isə deyib ki, son illərdə Təhsil Nazirliyi tərəfindən elektronlaşdırılmış və şəffaf şəkildə təşkil olunan xidmətlərdən biri tələbə köçürülməsi prosesidir. Bu prosesin tam elektronlaşdırılması tələbələrə heç bir xüsusi tapşırıq, vasitəçi və ya tanışlıq olmadan, bir manat ödəniş etmədən ölkə daxili və xaricindən ali təhsil müəssisəsini və ixtisasını dəyişmək şansı yaradır:** "Yerdəyişmə üçün müraciət edənlər arasında ümumi bir dəyərləndirmə aparanda görürük ki, valideynin israrı ilə ixtisas seçən tələbələr həmin sahədə özünü görmədiyi üçün istədiyi ixtisasa transfer olmaq istəyir. Digər bir qrup isə az bal topladığı üçün balı hansı ixtisasa düşübsə ora da qəbul olunanlardır. Azərbaycanda hər 100 nəfərdən 95 nəfəri arzulamadığı, heç xəyalına gəlməyən ixtisaslar üzrə oxuyur. Sonra da əmək bazarında yer tapa bilmir. Gənclərin arzuladığı ixtisasa daxil ola bilməməsi və əmək bazarında iş tapmaması sadəcə bir problem deyil, milli faciədir. Bu problemin başlanğıcı isə Dövlət İmtahan Mərkəzinin qəbul imtahanlarını qrup şəklində keçirməsidir. Dünyada ikinci belə bir model yoxdur ki, hansısa bir ölkədə abituriyent bir qrup üzrə 8-15 yer yazsın, hansına düşər düşsün. İmtahanlar ixtisaslar üzrə keçirilməlidir ki, sadəcə, universitetdə oxumaq xatirinə balı uyğun gələn ixtisası seçən tələbə sonradan bunun peşmanlığını yaşamasın. Y.Piriyevin misal gətirdiyi tələbələr də məhz bu kateqoriyaya daxildir".

Ekspertin sözlərinə görə, yerdəyişmə üçün müraciət edənlərin bir qismi isə yaşayış yerini əsas gətirir. Eyni ixtisas üzrə hər hansı bir regionda təhsil alan tələbə eyni ixtisas üzrə evinə daha yaxın olan universitetdə təhsil almaq istəyir.

**Şəymən**

# Məktəblərin idarə olunmasında valideynlərin rolu artırılır"

## Tətbiq olunan qaydalar mütləq şəkildə məktəb mühitinin sağlamlaşmasına xidmət göstərəcək

**Məktəblərdə şagirdlərin davranış pozuntularının ağırlıq dərəcəsi təsnifatlara bölünüb. Davranış səviyyələrinə görə tətbiq ediləcək inzibati tədbirlər bunlardır: müəllim baxışı; qeyri-verbal münasibət; şagirdlərlə sakit söhbət; xəbərdarlıq; uzaqlaşdırma; valideyn ilə əlaqə saxlamaq; dərsdən sonra şagirdin məktəbdə saxlanması; psixoloqa yönləndirmə; sarı xəbərdarlıq məktubu; narıncı xəbərdarlıq; qırmızı xəbərdarlıq.**





Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev bildirib ki, həmin təsnifatlar davranış pozuntularının ağırlıq dərəcəsini təyin edəcək. Eyni zamanda bu qaydalar əsasında məktəblər özləri də daxili qaydalarını tərtib edə biləcəklər. Nizamnamədə onlara belə bir səlahiyyət verilib.

**Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru İlqar Orucov bu barədə "Şərq"ə danışarkən bildirib ki, məktəblərdə davranış qaydalarını tənzimləyən normaların olması olduqca vacib idi:** "Biz zaman-zaman bu haqda müzakirələr edirdik. Yeni tətbiq olunan qaydalar mütləq şəkildə məktəb mühitinin sağlamlaşmasına xidmət göstərəcək. Məktəb subyektləri valideynlər, şagirdlər, müəllimlərlə bağlı ümumi normaların qəbul olunması olduqca mühümdür. Müxtəlif ölkələrin təcrübəsinə nəzər saldıqda, bizdə də buna ehtiyac yarandığını görürük. Son zamanlar məktəblərdə baş verən xoşagəlməz hallar da bu normaların qəbuluna şərait yaratdı. Buna müxtəlif yanlış yanaşmalar var. Anlamalıyıq ki, burda söhbət insanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasından getmir. Əksinə, məktəblərin idarə olunmasında valideynlərin rolunun artırılması, məktəb mühitinin demokratikləşdirilməsi, eyni zamanda, məktəbin yazılmamış qaydalarının çərçivəyə salınması məsələlərinə yer ayrılır".

**İ.Orucovun fikrincə, yeni normalarla bağlı daha geniş müzakirələr keçirilsə, valideynlər, təhsil ekspertləri, təhsillə əlaqəli QHT-lər orda iştirak etsəydi, daha yaxşı olardı:** "Amma hər halda ilkin variant üçün yeni qaydalar qənaətbəxşdir. Gələcəkdə onu daha da təkmilləşdirmək olar. Valideynlər təhsilin vacib subyektlərindən biridir. Buna görə onlar məktəbin idarə edilməsində iştirak etməlidirlər. Şagirdlər günün dörddə bir hissəsini məktəbdə olurlarsa, dörddə üç hissədə valideynlərinin yanında olurlar. Əgər hansısa şagirdin davranışında problemlər varsa, onun aradan qaldırılması məktəb və valideynin birgə əməyi ilə həyata keçirilməlidir. Valideynlər övladlarının məktəbdəki davranışlarından mütəmadi olaraq xəbərdar olmalıdırlar. Hesab edirəm ki, məktəb və valideynlərin bu problemlərin üzərində birgə mərkəzə toplaşması cəmiyyətimiz üçün olduqca faydalıdır. Düzü, biz bu qaydaların hazırlanmasına gecikmişik. Belə olmasa idi, son illər məktəblərdə baş verən xoşagəlməz hallara da şahidlik etməyəcəkdik".

**Onun sözlərinə görə, burda çox vacib məqamlardan biri də bu normaların gələcəkdə "Təhsil haqqında" qanunda yer alması məsələsidir:**

"Cəmiyyət inkişaf edir, insanların davranışları sürətlə dəyişir. Əvvəlki illərlə müqayisədə indi informasiya bolluğudur. Kənar informasiyaların yetişməkdə olan nəslin psixologiyasında, davranışında mənfi izlər buraxması özünü göstərir. Buna əngəl olmaq üçün qaydalar mütləqdir. Yeni qəbul olunan normalar nə şagirdlərin davranışlarını məhdudlaşdırır, nə də onların hüquqlarını azaldır. Şagirdlər yetişməkdə olan nəsildir. Onlar pis vərdişləri götürməkdə daha meyilli olurlar. Hər hansı bir sinifdəki şagirdin davranışında pozuntu varsa, bu, mütləq şəkildə digərlərinə də təsir göstərir. Yeni normalar da məhz belə halların zamanında aşkarlanıb və qarşısının alınmasına xidmət edəcək".

**Günəş Mərd**



# Qarabağa Qırğızıstandan iribuynuzlu heyvanlar gətiriləcək

**Qarabağda yetişdirilmək üçün Qırğızıstandan iribuynuzlu heyvanlar gətiriləcək.**

Bunu Kənd Təsərrüfatı Nazirliyinin protokol şöbəsinin müdiri Toğrul Qafarbəyli dünən Bakı Ekspo Mərkəzində Trend-ə özəl açıqlamasında deyib.

Onun sözlərinə görə, hazırda bu istiqamətdə Qırğız Respublikası ilə danışıqlar aparılır.

"Gətiriləcək iribuynuzlu heyvanlar "yak" cinsinə məxsusdur və məhsuldarlığı ilə seçilir. Növbəti ildən bu heyvanların ölkəmizə idxalı nəzərdə tutulub.

Pilot layihə olaraq Kəlbəcərdə, sonra isə Laçında yetişdirilməsi nəzərdə tutulur",- deyə o, qeyd edib.

# “Şəhərdə anti-sanitar qaydada ət satan yerlər var”

## “Yalandan üstünə tənzif də örtürlər ki, guya, milçək qonmasın”



**Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən respublika üzrə fəaliyyət göstərən ət satışı və heyvan kəsimi məntəqələrində monitorinqlər aparılıb. Nəticədə Bakı və Xaçmazda bir sıra heyvan kəsimi məntəqələrində nöqsanlar aşkar olunub. AQTA-dan verilən məlumata görə, aşkarlanmış uyğunsuzluqlarla əlaqədar 9 məntəqədə yenidən bərpa edilmiş qanunsuz metal konstruksiyalar təkrarən sökülüb.**

Qida üzrə baş mütəxəssis Ağa Salamov məsələ ilə bağlı ”Şərq”ə danışarkən bildirib ki, dəfələrlə insanlara ”Küçədə kəsilən, açıq havada satılan ət məhsullarını almayın” deyə xəbərdarlıq edilib: ”Regionlar bir yana, hələ şəhərin mərkəzində - Yasamalda açıq havada, asılmış ət satılır. Bunların qarşısı alınsa, yaxşı olar. Biz yaxşı bilirik ki, o əti satanlar kimlərdir. Amma dövlət üçün hamı birdir.

Qaydanı pozan hər kəs eyni cəzanı almalıdır. Şəhərdə anti-sanitar qaydada ət satışının həyata keçirildiyi kifayət qədər yerlər var. Onların şəkillərini çəkib AQTA-ya da göndərmişik. Bütün ət kəsimi məntəqələrinin soyuducu ilə təmin olunmasına baxmayaraq, heç bir satış yerində kəsilmiş ət soyuducuya qoyulmur. Elə necə gəldi kəsib asırlar.

Bir mütəxəssis olaraq yaxınlaşıb, deyirəm ki, onu soyuducuya qoyun. Ət riskli məhsullardandır. O, normal otaq temperaturunda, havadan asılı vəziyyətdə qalanda mikrobioloji çirklənməyə məruz qalır. Həmin müəssisələr deyir ki, guya, bunlar kəsən kimi satırlar. Yaxşı tutaq ki, bir qismini elə satdınız. Axı digər qismi sallaq şəkildə qalır orda. Yalandan üstünə tənzif də örtürlər ki, guya, milçək qonmasın. Anlamırlar ki, onun üzərinə milçəkdən əlavə hər saatda milyardlarla bakteriya toplaşır. Bu da insanlarda qida zəhərlənmələrinə yol açır. İmmunitet sistemi zəif olan insanlarda uşaqlarda, yaşlılarda müəyyən fəsadlar əmələ gətirir. Bir çox ət satış məntəqəsinə girsək, bu mənzərə ilə qarşılaşacağıq”.

Mütəxəssis diqqətə çatdırıb ki, qida təhlükəsizliyinə əsaslanan HACCP qaydalarına, Kritik Nəzarət Nöqtələri sisteminə görə ət kəsilən kimi soyuducuya qoyulmalıdır. Əvvəlcə bu adamlarla maarifləndirmə işi aparılmalı və onlar gec olmadan kəsdikləri əti soyuducuya qoymağı öyrənməlidirlər.

**Günəş Mərd**

## Getmirdi, amma Ağadadaş Ağayevə söz verdi

Dədə Süleyman xəstəxanaya yerləşdiriləcək



**Xalq artisti Ağadadaş Ağayev və aparıcı Hacı Nuran Hüseynov uzun müddətdir səhhətində problem olan Əməkdar artist Süleyman Abdullayevi (Dədə Süleyman) ziyarət edib.**

Aparıcı xanəndənin yaxın günlərdə xəstəxanaya yerləşdiriləcəyini bildirib:

”83 yaşlı sənətkarın vəziyyəti heç də ürəkaçan olmasa da, amma o, həyata optimist baxır. Tezliklə xəstəxanaya yerləşdiriləcəyini dedik. Əslində bunu qızı çoxdan etmək istəyirmiş, amma özü razı olmurmuş. Bizdən isə keçə bilmədi. Ağadadaş Ağayevə də, mənə də söz verdi ki, həkim müayinəsinə gedəcək. Düzdür, vəziyyəti kritikdir, ayağı qanqrena edib. Ayağını qurtarmaq mümkün olacaqmı, bilmirik”.

*Qeyd edək ki, xanəndənin qızı atası Aygün Abdullayeva ilə bağlı açıqlamasında ”Müalicə dayandırılıb. Həkimlər əlindən gələni edib. Bu xəstəlik qarşısında həkimlər də aciz qaldı. Ürəyinin yalnız 30 faizi fəaliyyət göstərir. Bir il əvvəl atamın ayağının baş barmağında qanqrena başladı. Amputasiya olundu. Bir il keçəndən sonra bu ilin avqustunda digər barmağı qaralmağa başladı. Onu da amputasiya etdilər. Ayağı çox pis vəziyyətə düşdü. Həkimlər elə bir nəticəyə gəldilər ki, yaş həddinə görə, daxili orqanlarında ciddi problemlər olduğuna və hətta ciyərlərinə yığıldığına görə heç cür riskə gedə bilmədiklərini söylədilər. Məhz buna görə, atam hazırda bu vəziyyətdədir. Əvvəldən atam şəkər xəstəsi olub” sözlərini deyib.*

## “Atam baltayla üstümə gəlmişdi”

Zülfiyyə Xanbabayeva: ”Onu anam öyrədirdi”



**”Məşqlər zamanı biz klubda idik. Atam isə əlində balta ilə gəlib qapını sındırırdı. Əslində atam çox sakit insan olub. Onu anam öyrədirdi: get, qızın müğənni olmaq istəyir, məşqlərə gedir”.**

Bu sözləri Xalq artisti Zülfiyyə Xanbabayeva ”Söhbət var” proqramında deyib. Müğənni bildirib ki, valideynləri onun sənətə gəlməsinə qarşı çıxıb. Verilişdə yer alan Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə ”Atası balta ilə gəlmişdi. Dedim ki, elə zaman gələcək ki, Zülfiyyə Xanbabayeva məşhur müğənni, Xalq artisti olacaq və sizə konsertinə bilet verməyəcək” sözlərini əlavə edib. Z.Xanbabayeva ”Doğrudan da oldu. Valideynlərim bir konsert olanda deyirdilər ki, bizə və ya dost, tanışımıza bilet tap ver. Mən də cavab olaraq söyləyirdim ki, gedin bileti özünüz alın” cavabını verib.

## Murad Arif məktəblərdə tapşırıqların çoxluğundan şikayətləndi



**Son günlər şagirdlərin dərs yükünün çoxluğundan şikayət edənlər arasına müğənni-bəstəkar Murad Arif də qoşulub.**

İfaçı bu barədə sosial media hesabında yazıb. O, ev tapşırıqlarının çox olduğunu və bu səbəbdən şagirdlərin özlərinə asudə vaxt ayıra bilmədiyini vurğulayıb:

”Hörmətli valideynlər, ev tapşırıqlarının əlindən uşağınızın asudə vaxtı qalırmı? Nə bilim idmana, istirahətə... Bizim qaqaş (oğlu Mikayıl - red.) 5-də oxuyur, ikinci növbədə... Həftədə 2 saat ingiliscə, 2 saat piano dərsləri var. Uşağa həftəyə 2 saat vaxt tapa bilmirəm ki, idmana aparım. 1 şənbəmiz var, onu da idmanla doldurum? Vallah, biz də oxumuşuq məktəbdə. Kinolara da baxırdıq, məhlədə də oynayırdıq, idmana, musiqiyə də gedirdik. Hələ çantaların anormal ağırlığı...”.

# “Boğazımdakı şiş ümidlərimi qırdı”

## Könül Xasıyevaya 254 min lazımdır



**“Əziz və dəyərli xalqımız, elimizobamız, uzaqda, yaxında yaşayan soydaşlarımız. Sənətə gəldiyim ilk gündən, hər zaman ləyaqətlə yaşamağa çalışdım. Öncə ləyaqət, sonra sənət dedim.**

Kimsənin qəlbini qırmadım. Var-dövlət arxasınca qaçmadım. Sadə doğuldum, sadə yaşadım. Ən əsası sizi sevərək, sevginizlə yaşadım. 22 ildir hər gecə ölümlə çarpışdım, səhər yenə qalxmağa, dik durmağa çalışdım. Tək bir səbəbim vardı. Narahat və yeganə övladım Kazımın toyunu görmək! Amma boğazımda yaranan bəd xassəli şiş bütün ümidlərimi qırdı. Elə bilirəm dünya uçub altında qalmışam. Amma bir ümid var ki, hələ metastaz (yayılmayıb) verməyib. Vaxtında əməliyyat olunsam, yaşama şansım var”.

Bu sözləri Xalq artisti Könül Xasıyeva sosial şəbəkədə yazıb. Azərbaycanlılara səslənən sənətçi əməliyyat üçün maddi yardıma ehtiyacının olduğunu bildirib:

”Almaniyada olacaq əməliyyat üçün 150.000 dollar (254 min manat) vəsait lazımdır. Ümidim sizədir, məni dualarında yaşadan əziz xalqımız! İnanıram ki, Azərbaycan musiqisini ”Gecələr”siz, Kazımı da körpə canı ilə mənsiz, tək qoymayacaqsınız. Buna o qədər inanıram ki... Vəsait yığılıb, sağ-salamat qayıtsam, Allahın izni ilə 2 gün Heydər Əliyev sarayında və daha sonra bölgələrimizdə pulsuz, açıq konsertlər verəcəm”.

## Aqressiv itlər zərər verir

Qonşu ölkədə bu itlərin saxlanmasına qadağa qoyulur



**Gürcüstanın Heyvanların Monitorinqi Agentliyi ölkədə aqressiv it cinslərinin saxlanmasına və artırılmasına qadağa qoyulmasına nail olmağa çalışır.**

Oxu.az xəbər verir ki, bu barədə agentliyin baş hüquqşünası Kaxaber İoseliani oktyabrın 18-də mətbuat konfransında məlumat verib. ”Bu həftə ərzində aqressiv itlər tərəfindən bir neçə nəfərin dişlənməsi halları qeydə alınıb. Bələdiyyələrin öz qaydaları var, lakin hazırda ev heyvanları üçün ölkə daxilində tətbiq olunan vahid qanunvericilik yoxdur”, - İoseliani bildirib. O qeyd edib ki, Tiflisdə aqressiv cins itləri gəzdirməyə icazə verilən günün vaxtı ilə bağlı məhdudiyyətlər var, lakin belə cinslərin siyahısı yoxdur. Hüquqşünas Qərb ölkələrindən nümunə götürərək belə siyahının tətbiq edilməsinə çağırıb.

İoseliani bəzi cins itlərin saxlanmasını qadağan edən qanun layihəsinin hazırlanmasında Kənd Təsərrüfatı və Ətraf Mühit Nazirliyinin də iştirak etdiyini bildirib.

”Bu məhdudiyyət qüvvəyə minərsə, geriyə qüvvəsi olmayacaq. Qadağan edilən cinsdən iti olan heyvanın sahibi onu evtanaziya etməli və ya başqa ölkəyə aparmalı olmayacaq”, - İoseliani əlavə edib.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun I müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olu-

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3005




## “Gecənin ucunda” müzakirələrə səbəb oldu

### Neslihan Atagülün üslubu tamaşaçılardan əla qiymət alıb

**Baş rollarda Neslihan Atagül və Kadir Doğulu cütlüyünün çəkildiyi "Gecənin ucunda" serialı yayımlandığı ilk gündən sosial şəbəkələrdə ən çox müzakirə edilən seriallardan birinə çevrilib. "Şərq" türk mediasına istinadən xəbər verir ki, serialda Macide obrazına həyat verən Neslihan Atagülün üslubu tamaşaçılardan tam qiymət alıb.**

**Macidenin özünü tapmaq üçün yola çıxarkən sevgi ilə sınanmasından və daha əvvəl görmədiyi bir dünyaya girməsindən bəhs edən serialda Atagül rahat, gündəlik üsluba uyğunlaşa bilən və diqqət çəkən geyimləri ilə heyranlıq yaradıb.**

**Macide korporativ həyatı geridə qoyub, ürəyinin çağırışını dinləyir və insanlara yaxşılıq etmək üçün İstanbula köçür. Ayrıldığı gün tanış olduğu Ahmet Macidə aşiq olur. Macidenin sevgisini tapacağı adam Ahmet deyil, böyük qardaşı Kazım olacaq.**

**Turan**

## İki gün əvvəl yoxa çıxmışdı

### Naz Güldən acı xəbər gəldi



**Türkiyənin Adana şəhərinin Kozan rayonunda bağçadakı çənə düşərək dünyasını dəyişən Naz Gül Akdumanın (4) cənazəsi ailəsinə təhvil verilib. Kiçik qızın ailəsinin 1 həftə əvvəl Kayseridən Kozana köçdüyü bildirilib.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, Kozanda babasının bağçasında dostları ilə oynayan Naz Gül Akdumanın səhər radələrində yoxa çıxdığını anlayan ailəsi kiçik qızı axtarmağa başlayıb. Naz Gülün dostları bağçadakı çəni göstərərək ora düşə bilecəyini bildiriblər. Əraziyə polis, yanğınsöndürənlər və tibb işçiləri göndərilib. Adana Böyükşəhər Bələdiyyəsi Su və Kanalizasiya İdarəsindən də bir vakuum maşını tələb olunub. Suyun boşaldılmasından sonra 4 metr dərinlikdəki çənə girən qruplar Naz Gülün cansız bədənini görüblər. Məmurlar tərəfindən septik çənin açıq qapağı bağlanıb.**

**Araşdırmalar hələ də davam edir.**

**Naz Gül Akdumanın cənazəsi Güneri Mahallesi qəbiristanlığına gətirilib. Dəfn mərasimində Naz Gülün anası Sevgi və atası Mehmet Akduman çətinliklə dayanıblar. Namazdan sonra Naz Gülün cənazəsi son səfərinə göz yaşları içində yola salınıb.**

**Turan**

## “Ceyms Bond”a “Cəngavər” ordeni verildi



**Hollivud ulduzu Daniel Kreyq Müqəddəs Mixail və Corc ordeni ilə təltif edilib.**

**Axşam.az xarici mətbuata istinadən xəbər verir ki, "Ceyms Bond"a bu mükafat kinematoqrafiyaya və teatra verdiyi töhfəyə görə verilib.**

**Mükafatlandırma mərasimi London yaxınlığındakı Vindzor qəsrində keçirilib. Şahzadə Anna 54 yaşlı aktyorun boynuna "Cəngavər" ordeni olan lent taxıb.**

# Turistlər bura gəlmir

## Adada insanlardan çox qoyun yaşayır






**Farer adaları Atlantik okeanında Şotlandiya və İslandiya yaxınlığında yerləşən yüzlərlə ada və qayalardan ibarət arxipelaqdır. Farer adaları füsunkar mənzərələri ilə mütləq ziyarət edilməli və araşdırılmalı yerlərdən biridir.**

Təbii gözəllikləri və okeanın ortasında bənzərsiz tənhalığı ilə əslində kifayət qədər turizm zonası olan bu adalarda 2019-cu ildə qəbul edilən qərara əsasən turizm dayandırılıb. Bir çox attraksionlar bağlanıb və bunun əvəzinə yerli sakinlər yürüş yollarını və digər mühüm infrastrukturu qorumağa kömək etməyə dəvət edilib. Bu tədbirin adaların təbii gözəlliklərini qorumaq üçün atıldığı düşünülür.

Farer adalarının paytaxtı Torshavn bələdiyyəsi əla xidmət göstərir. Torshavn bələdiyyəsində və ətrafında səkkiz avtobus marşrutu tamamilə pulsuzdur. Şəhər avtobusları pulsuz olsa da, yəqin ki, onlardan istifadə etməyə ehtiyacınız olmaya bilər. Çünki bələdiyyədə cəmi 20 min insan yaşayır və şəhərin istənilən yerinə piyada getmək mümkündür.

Farer adaları 750-dən çox adadan ibarətdir. Lakin bu 750 adadan yalnız 18-də real həyat var. Adaların ən böyüyü Streymoydur və həm də paytaxt Torshavn şəhəri olduğu üçün ən sıx məskunlaşan adadır. İkinci böyük ada Eysturoydur və burada 10 mindən çox insan yaşayır.

Farer adaları 1814-cü il Kil müqaviləsi ilə Danimarkaya verilənə qədər Norveçin bir hissəsi hesab olunurdu. 1948-ci ildən bəri özünü idarə edən adaların öz parlamentləri var və müdafiə, polis və xarici işlər istisna olmaqla, qanunvericilik sahələrinin əksəriyyətinə nəzarət edirlər. Məktəblərdə Danimarka dili öyrədildiyi halda, farer dili milli dil hesab olunur.

Farer adaları üçün təəccüblü faktlardan biri də bu adalarda təxminən 70 min qoyunun yaşamasıdır. Farer adalarının son rəsmi siyahıya alınmasında əldə edilən insanların sayını nəzərə alsaq, insan əhalisinin qoyun sayından aşağı olduğu məlumdur.

**Turan**




# Təqib olunmaqdan usandı

## Dünyanın üçüncü ən varlı adamı şəxsi təyyarəsini satıb

**Dünyanın üçüncü ən varlı adamı olan Bernard Arnault izlənilməmək üçün şəxsi təyyarəsini satıb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, fransız moda nəhəngi "Louis Vuitton"un CEO-su Bernard Arnault sosial mediada daimi təqib olunduğu üçün şəxsi təyyarəsini satdığını açıqlayıb.**

> **"Artıq heç kim hara getdiyimi görə bilməz"**

Media orqanı olan "Radio Classique"ə danışan 73 yaşlı milyarder bunun əvəzinə özəl təyyarələr kirayələməyə qərar verdiyini söyləyib.

"Əslində mənim şirkətlər qrupunun şəxsi təyyarəsi var idi və biz onu satdıq. Nəticə belə oldu ki, artıq özəl bir təyyarə olmaq əvəzinə onu kirayələdiyim üçün heç kim hara getdiyimi görə bilməz".

Keçən il ərzində ictimaiyyətə açıq uçuş məlumatlarını izləyən və paylaşan bir çox "Twitter" hesabı yaranıb. O, Elon Musk və Teylor Svift kimi insanların səyahət fəaliyyətlərini məşhurlaşdırır. "Louis Vuitton" CEO-nun uçuşlarını izləyən iki hesab, onlardan ikisinin təxminən 100 min izləyicisi var və hər ikisi də son altı ayda yaradılıb.

Arnaultun uçuşlarını izləyən "i_fly_Bernard" və "laviondebernard" tvitlərinə görə, milyarder bir neçə həftə əvvəl şəxsi təyyarəsini satıb. Laviondebernard, bir neçə həftə əvvəl LVMH-nin Fransadakı uçuşunun qeydiyyatını ləğv etdiyini bildirdikdən sonra milyarderin son uçuş məlumatlarının əskik olduğuna dair bir yazı paylaşıb.

Sentyabrın 10-da hesabda "Nə Bernard Arnaultdan, nə də şirkətindən hələ də şəxsi təyyarələrdən xəbər yoxdur. Bernard nə olub, gizlənirsən?" qeydi yazılıb.

**Turan**

# Hollivud tarixində ilk çinli...

## Siması Amerika valyutasında həkk olunacaq





**Səssiz kino dövrünün ulduz aktrisalarından olan Anna Mey Vonqun şəkli Amerika sikkələrində çap olunacaq. İlk Çin əsilli Hollivud ulduzu Vonq, Amerika pullarında rəsmi olan ilk Asiya əsilli aktyor kimi tarixə düşəcək.**

Amerika Qadın Məhəllələri Proqramı pulun necə görünəcəyinə dair vizual görüntü paylaşıb. Amerika sikkələrində rəsmi olacaq digər adlar arasında Maya Angelou, Sally Ride, Wilma Mankiller və Nina Otero-Warren var.

"Bu ruhlandırıcı sikkə dizaynları beş inanılmaz qadının hekayəsini və onların Amerika mədəniyyətinə töhfələrini əks etdirir", - deyə məlumatda bildirilir. Kino sənayesində ilk Çin-Amerika aktrisası olan Vonq, 40 illik karyerasında ayrı-seçkiliyə qarşı güclü mövqe tutub və Marlene Dietrich, Joan Crawford və Laurence Olivier kimi Hollivud ikonları ilə birlikdə çıxış etmək şansı qazanıb. Ötən mart ayında Vonqun həyatından bəhs edəcək filmdəki aktrisanın adının çinli aktrisa Gemma Çan olacağı açıqlanmışdı. "Şanxay ekspres"i (1932) və "Bağdad oğrusu" (1940) kimi filmlərlə uğurlu karyera quran Vonq obrazını canlandırmaqdan çox həyəcanlı olduğunu ifadə edən Çan, dövrünün çox irəlidə bir ikona olduğunu vurğuladı. Filmin senarisini "Tony" mükafatlı yazıçı David Hendy Hvang yazacaq.

**Turan**